**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYOLARI ÜZRƏ MƏDƏNÇIXARMA SƏNAYESİNƏ İNVESTİSİYA QOYULUŞLARI VƏ İŞĞAL NƏTİCƏSİNDƏ DƏYMİŞ ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Rəfiyev Eyyub Əmiraslan**

**BAKI-2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" _______________ 2022_-ci il**

# "QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYOLARI ÜZRƏ MƏDƏNÇIXARMA SƏNAYESİNƏ İNVESTİSİYA QOYULUŞLARI VƏ İŞĞAL NƏTİCƏSİNDƏ DƏYMİŞ ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060403-Maliyyə
**İxtisaslaşma:** Maliyyə Menecmenti
**Qrup:** 646

**Magistrant:**
**Rəfiyev Eyyub Əmiraslan oğlu**
**______________________ imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Zeynalov Zakir Hacı oğlu**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**____________________imza**

**BAKI – 2022**

## Elm andı

Mən Eyyub Rəfiyev Əmiraslan oğlu and içirəm ki, "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə mədənçıxarma sənayesinə investisiya qoyuluşları və işğal nəticəsində dəymiş zərərin qiymətləndirilməsi məsələləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**"QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARI ÜZRƏ MƏDƏNÇIXARMA SƏNAYESİNƏ İNVESTİSİYA QOYULUŞLARI VƏ İŞĞAL NƏTİCƏSİNDƏ DƏYMİŞ ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ"**

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Azərbaycan ermənilər tərəfindən dəfələrlə təcavüzə məruz qalmışdır. Sonuncu dəfə Ermənistan ordusunun 27 Sentyabr 2021-ci il tarixində atəşkəsi pozması müharibəni alovlandırmışdır. 44 gün davam edən Vətən Müharibəsi Azərbaycanın qələbəsi ilə nəticələnib. 28 ildir ermənilərin işğalda olan torpaqlara vurduqları zərər, xarici ölkələrdən mədənçıxarma sənayesinə investorların cəlb edilməsi və Qarabağda olan təbii resursların istismar edilməsi günümüzdə aktualdır.**

**Tədqiqatın məqsədi: Dissertasiya işinin məqsədi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi rayonlarının azan olunmasından əvvəl Ermənistan ordusu tərəfindən Azərbaycan Respublikasına vurulan zərərin qiymətləndirilməsi, həmçinin mədənçıxarma sənayesinə investisiya qoyuluşlarını araşdırmaqdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat işinin təhlili zamanı sistemli yanaşma və analiz metodlarından istifadə olunmuşdur. Bunlarla bərabər, deduksiya və induksiya metodlarından da istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Ekologiya və Təbii Nərvətlər Nazirliyinin təqdim etdiyi məlumatlar, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və internet resurslar.**

**Tədqiqatın məhdudiyyətləri: Dağlıq Qarabağ və ətraf rayonların azad olunmasından sonra, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi rayonlarına işğal dövründə mədənçıxarma sənayesinə investisiya qoyuluşları haqqında məlumatların cəmiyyətə açıqlanmaması tədqiqatın başlıca məhdudiyyətlərindəndir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmə gətirdiyi yeniliklərə aşağıdakılar aiddir:**

**- işğaldan azad edilmiş ərazilərdə düşmən tərəfindən vurulmuş zərərin həcmi və maliyyəti müəyyən edilmişdir və müəyyən edilmiş məlumatlar araşdırmalarla əsaslandırılmışdır;**

**- işğaldan azad edilmiş ərazilərin coğrafi əhəmiyyəti müəyyən olunmuş və zəngin olduğu resurslar tədqiq edilmişdir;**

**- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına cəlb edilmiş investisiyaların araşdırılmış və müəyyən edilmişdir.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına dəymiş zərərin qiymətləndirilməsinə, regionun investisiya potensiyalının öyrənilməsinə və cəlb edilmiş investisiyaların həcminin müəyyən edilməsində faydalı ola bilər.**



***Açar sözlər: Qarabağ, Şərqi Zəngəzur, iqtisadiyyat, investisiya.***

**"INVESTMENT IN MINING INDUSTRY IN KARABAKH AND EAST ZANGAZUR ECONOMIC REGIONS AND ASSESSMENT OF DAMAGE CAUSED AS A RESULT OF OCCUPATION"**


## SUMMARY

**The actuality of the subject: Azerbaijan has been repeatedly attacked by Armenians. The last violation of the ceasefire by the Armenian army on September 27, 2021 ignited the war. The 44-day Patriotic War resulted in the victory of Azerbaijan. The damage inflicted by Armenians on the occupied territories for 28 years, the attraction of foreign investors in the mining industry and the exploitation of natural resources in Karabakh are relevant today.**

**Purpose and tasks of the research: The purpose of the dissertation is to assess the damage inflicted on the Republic of Azerbaijan by the Armenian army before the call to prayer of the economic regions of Karabakh and East Zangazur, as well as to investigate investments in the mining industry.**

**Used research methods: A systematic approach and analysis methods were used in the study. In addition, deduction and induction methods were used.**

**The information base of the research: Information provided by the Ministry of Ecology and Natural Resources, database of the State Statistics Committee of the Republic of Azerbaijan and internet resources.**

**Restrictions of research: One of the main limitations of the study was the non-disclosure to the public of information on investments in the mining industry during the occupation of the economic regions of Karabakh and East Zangazur after the liberation of Nagorno-Karabakh and surrounding areas.**

**The novelty and practical results of investigation: The innovations brought to science by research include:**

**- the amount and cost of damage inflicted by the enemy in the liberated territories was determined and the identified information was substantiated by research;**

**- the geographical significance of the liberated territories was determined and the rich resources were explored;**

**- Investments in the Karabakh and East Zangazur economic regions have been investigated and identified.**

**Scientific-practical significance of results: It can be useful in assessing the damage to the economic regions of Karabakh and East Zangazur, studying the investment potential of the region and determining the amount of investment involved.**



***Keywords: Karabakh, East Zangazur, economy, investment.***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | **Amerika Birləşmiş Ştatları** |
| **BMT** | **Birləşmiş Millətlər Təşkilatı** |
| **XİN** | **Xarici İşlər Nazirliyi** |
| **KPF** | **Kohelet Policy Forum** |
| **ÜDM** | **Ümumi Daxili Məhsul** |
| **YAP** | **Yeni Azərbaycan Partiyası** |
| **BTQ** | **Bakı-Tbilisi-Qars** |
| **TRACECA** | **İpək Yolu marşrutu üzrə Avro-Qafqaz Nəqliyyat Dəhlizi** |

## MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................ **7**

**I FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ TARİXİ VƏ AZƏRBAYCAN ÜÇÜN ƏHƏMİYYƏTİ** ........................ **11**

1.1.Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tarixi ........................ **11**

1.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi və coğrafi əhəmiyyəti ........................ **14**

1.3. İqtisadi rayonların dirçəlişi üçün dövlətin həyata keçirdiyi siyasət ........................ **21**

**II FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ CARİ VƏZİYYƏTİNİN TƏDQİQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ** ........................ **25**

2.1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğalı nəticəsində dəymiş zərərin qiymətləndirilməsi ........................ **25**

2.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoyuluşlarının qiymətləndirilməsi ........................ **32**

2.3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mədənçıxarma sənayesinə investisiya qoyuluşları ........................ **45**

**III FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA MÖVCUD OLAN RESURSLARIN SƏMƏRƏLİ İSTİFADƏSİ İSTİQAMƏTLƏRİ** ........................ **50**

3.1. Ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərin beynəlxalq-hüquqi əsasları . **50**

3.2. Mövcud olan resursların səmərəli istifadəsinin təkmiləşdirilməsi istiqamətləri ........................ **54**

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........................ **61**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........................ **64**

Cədvəllərin siyahısı ........................ 68

Şəkillərin siyahısı ........................ 68

Qrafiklərin siyahısı ........................ 68

# GİRİŞ

**Mövzunun aktuallığı:** Təkcə XX əsrdə azərbaycanlılar ermənilər tərəfindən dəfələrlə təcavüzə məruz qalmışdır. Ermənilərn təcavüzkar və işğalçı olmaları onların tarixi xüsusiyyətlərindən olmuşdur, elə tarixdə olan nümunələrdə göründüyü kimi, əllərinə fürsət keçən kimi bütün vəsaitləri ilə bu istiqamətdə istifadə etməkdən heç vaxt çəkinməmişdir. Buna nümunə kimi, Sovet Sosialist Respublikaları İttifaqının dağılmasını fürsət bilərək Azərbaycan torpaqlarına təcəvüzlərə başlamasıdır. Bu təcavüz nəticəsində Azərbaycana məxsus olan, ölkəmizin təbii resurslar baxımından zəngin olan Qarabağı işğal olunmuşdur, bundan əlavə torpaqlarımızı işğal etmələrinə baxmayaraq üstəlik soyqırımlar törədmiş və minlərlə günahsız insanı qətlə yetirmişdir, bunun bariz nümunəsi Xocalı soyqırımıdır. 1994-cü ildə bağlanan atəşkəs nəticəsində müharibə dayanmışdır, lakin erməni ordusu atəşkəsi pozmamaqları üçün vəədlər versələrdə, bu vəədlərinə sadiq qalmamışdır, sonuncu dəfə Ermənistan ordusunun 27 Sentyabr 2021-ci il tarixində atəşkəsi pozması müharibəni alovlandırmışdır. 44 gün davam edən Vətən Müharibəsi Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı işlər aparılır. Bu ərazilər sovet dövründə dövlətə məxsus sənaye obyektləri olmaqla yanaşı, heyvandarlıqda çox gəlirli sahələr idi. Təəssüf ki, 30 ildir ki, biz bu məsələlərdən kənarda qalmışıq. Bununla yanaşı, 28 ildir erməni işğalında olan torpaqlara vurduqları zərər, qanunsuz xarici ölkələrdən mədənçıxarma sənayesinə investorların cəlb edilməsi və Qarabağda olan təbii resursların istismar edilməsi əsas mövzu olduğu üçün dissertasiya mövzusu günümüzdə kifayət qədər aktualdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Elmi ədəbiyyatlar və tarixi mənbələrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına dəymiş zərər haqqında kifayət qədər məlumat yoxdur. İşğal edilmiş torpaqların azad olunmasında sonra bu region haqqında məlumatlar tam dəqiq öyrənilməyə başlanılmışdır.

Ümumilikdə bu mövzu ətrafında kifayət qədər araşdırmaların olmaması səbəbindən elmi dissertasiya mövzusu olaraq “Qarabağ və Şərqi Zəngəzur iqtisadi

rayonları üzrə mədənçıxarma sənayesinə investisiya qoyuluşları və işğal nəticəsində dəymiş zərərin qiymətləndirilməsi məsələləri” seçilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni iqtisadi şəraitdə mədənçıxarma sənayesinin formalaşdırılması və onun effektivliyini müəyyən edən faktorların qiymətləndirilməsidir.

Tədqiqatın vəzifələri aşağıdakılardır:

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mədənçıxarma sənayesinə investisiya qoyuluşları;

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi işğalı nəticəsində dəymiş zərərin qiymətləndirilməsi;

- Ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərlərin yolverilməzliyi və ödənilməsinin beynəlxalq-hüquqi əsasları;

- Mövcud olan resursların səmərəli istifadəsinin təkmiləşdirilməsi istiqamətləri.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları və regionun potensiyalı, tədqiqatın predmeti olaraq burada yerləşən mədənçıxarma sənayesinə investisiyalar və dəymiş zərərin qiyətləndirilməsi məsələləri əsas götürülmüşdür.

**Tədqiqat metodları:** Tədqiqat işinin təhlili üçün sistemli yanaşma və analiz metodlarından istifadə olunmuşdur. Bunlarla bərabər, deduksiya və induksiya metodlarından da istifadə olunmuşdur. İnduksiya metodu vasitəsilə tədqiqat işi barəsində iqtisadi dəlillər toplanmış, araşdırılmış və sistemləşdirilmişdir. Sintez metodu, əldə edilmiş məlumatların daha oxunaqlı hala gəlməsi üçün istifadə olunmuşdur. Tədqiqat işində sistemli analiz metodu tətbiq edilir, buna müvafıq şəkildə, problem iqtisadi inkişafa müvafıq əlaqəli tarixi inkişaf yönündən təhlil olunur. Tədqiqatın, hər bir mərhələsində həm ümumi sintez metodları və elmi analiz, həmçinin məntiqi analiz, iqtisadi-statistik metod, müqayisə və təsnifat metodları, həm də ekspert qiymətləndirmə metodlarından istifadə olunmuşdir.

**Tədqiqatın informasiya bazası:** Ekologiya və Təbii Nərvətlər Nazirliyinin təqdim etdiyi məlumatlar, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və internet informasiya resursları, digər ölkələrin məlumat bazaları və bu sahədə araşdırmalar aparan elm adamlarının və tədqiqatçılarn məqələləri informasiya bazasını təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** Dağlıq Qarabağ və ətraf rayonların azad olunmasından sonra, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi rayonlarına işğal dövründə mədənçıxarma sənayesinə investisiya qoyuluşları haqqında məlumatların cəmiyyətə açıqlanmaması tədqiqatın başlıca məhdudiyyətlərindəndir.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmə gətirdiyi yeniliklərə aşağıdakılar aiddir:

- işğaldan azad edilmiş ərazilərdə düşmən tərəfindən vurulmuş zərərin həcmi və maliyyəti müəyyən edilmişdir və müəyyən edilmiş məlumatlar araşdırmalarla əsaslandırılmışdır;

- işğaldan azad edilmiş ərazilərin coğrafi əhəmiyyəti müəyyən olunmuş və zəngin olduğu resurslar tədqiq edilmişdir;

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına cəlb edilmiş investisiyaların araşdırılmış və müəyyən edilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına dəymiş zərərin qiymətləndirilməsinə, regionun investisiya potensiyalının öyrənilməsinə və cəlb edilmiş investisiyaların həcminin müəyyən edilməsində faydalı ola bilər.

# I FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ TARİXİ VƏ AZƏRBAYCAN ÜÇÜN ƏHƏMİYYƏTİ

## 1.1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tarixi

Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Mövcud araşdırmalar nəticəsində görmək olur ki, dünya ərazisində yaradılmış ilk insan mədəniyyətlərindən biri olan Quruçay vadisi burada formalaşmışdır. İlk insanın burada var olmasının və tapılan ən əhəmiyyətli arxeoloji qazıntılardan biri alt çənə sümüyüdür, insana məxsus olduğu müəyyən edilən alt çənə sümüyü araşdırmaçıların fikirlərinə görə 18-22 yaşında olan bir qadına məxsus olmuşdur və təqribən bu insanın bu torpaqlarda 350-400 min il əvvəl yaşadığı düşünülür (Nəcəfli T., Dədəyev B., 2013).

Təsadüfi deyil ki, arxeoloji qazıntılar nəticəsində tapılan dəyərli tarixi sübutun tapıldığı yer Qarabağdır. Qarabağ bölgəsinə Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındakı bölgə daxildir. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın adı Azərbaycanca “qara” və “bağ” sözlərindən yaranıb. . “Qara” sözü Azərbaycan dilində “qalın” və ya “böyük” mənasını ifadə edir. Bu baxımdan “Qarabağ” “böyük bağ” və ya “sıx bağ” deməkdir. Qarabağın və hal-hazırda mövcud Ermənistanın ərazisi ermənilərin qədim yaşayış məskənlərindən biri deyildir və onlar bu ərazidə məskunlaşan qədim xalqlardan hesab etmək olmaz, bu məlumatları digər dövlətlərin və tarixi araşdırmaların nəticələri ilə yanaşı erməni mənbələrində də bu məlumatın doğruluğun təsdiqləmək mümkündür. Zəngin mədəniyyətə, dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı qədim zamanlardan bu torpaqlarda məskunlaşıb. Azərbaycan e.ə III minillikdən III əsrə qədər bu torpaqlarda ən qədim tayfa birliklərinin, ilk dövlət qurumlarının və dövlət ənənələrinin formalaşdığı dövrdür. Bu dövrdə Aratta, Kuti, Lullubi, Turukki, Manna, Atropatena, Albaniya kimi ən qədim tayfa birlikləri Azərbaycan ərazisində olmuşdur. Azərbaycanın cənubunda qüdrətli Manna dövləti e. ə. IX-VI əsrlərdə meydana çıxmışdır. Manna qədim türk xalqlarının tarixində ilk türk dövlətidir. Azərbaycanlıların dövlət ənənəsinin tarixi Mannadan başlayır. Manna Assuriya və Urartuya qarşı mübarizəsində öz

müstəqilliyini qoruyub saxlaya bilmiş, Şimali Azərbaycan torpaqları, o cümlədən Qarabağ Urartu işğalından kənarda qalmışdır.2-ci əsrdə müasir Azərbaycanın ərazisinə qədim türk tayfalarının köçü başlanmışdır, ilk köçən təyfalardan Hunların, Sabirlərin və digər türk tayfalarının adlarını qeyd etmək olar, türk tayfaları bu vaxtdan sonra regionda əsas rol almağa başlamışlardır. IV əsrdə və sonralar Azərbaycanın şimalında Atropatenanın da torpaqları olub və o zaman Qarabağın tərkibində olan torpaqların bir qismi bu dövlətə məxsus olub. Atropatena ilə eyni vaxtda qurulan Alban dövləti, VIII əsrdə mövcud olan o, 1200 ilə yaxın Azərbaycan tarixində böyük rol oynamışdır. Qarabağın bütün ərazisi Alban dövlətinin tərkibində idi və bu dövlət Qarabağın müdafiəsi üçün amansız mübarizə aparırdı. Qədim dövrlərdən bəri yerli türk tayfalarını xristianlaşdırmaq üçün müxtəlif addımlar atılmışdır, 515-ci ildə Alban kilsəsinin yepiskopu regionda xristianlığı yaymağa çalışmışdır. Lakin Ərəb xilafətinin regionu fəth etməsi ilə islamın yayılmasına gətirib çıxarmışdır. (Yunusov A., 2005).

Qarabağ tarixində əsas dəyişikliklər Ərəb xilafətinin işğalı və sonradan Alban dövlətinin ləğvi ilə baş vermişdir. Əsrlərin əvvəlləri, xüsusilə Atabəy-Şirvanşahlar hakimiyyəti dövrü Azərbaycanın bütün Cənubi Qafqazda qüdrətinin möhkəmləndiyi bir dövr olmuşdur. Sacilər və atabəylər faktiki olaraq tarixi Azərbaycan torpaqlarını siyasi cəhətdən birləşdirdilər. Keçmiş Albaniya ərazisində yaradılmış Xaçın knyazlığı Mehranilər sülaləsindən olan Həsən Cəlalın (1215-1261) hakimiyyəti dövründə yüksək inkişaf mərhələsinə çatmışdır. Birinci monqol yürüşündə (1220-1222) Atabəylərin zəifləyən dövlətinə son qoyan Xarəzmşah Cəlaləddin Azərbaycanda (1225-1231) dövründə Qarabağ onun hakimiyyəti altında idi. (https://www.virtualkarabakh.az/az/post-item/22/37/qarabagin-xristianliq-tarixi.html)

Zəngəzur sözü türk mənşəli toponim olan və Zəngilər türk tayfasının adına əsasən yaradılmışdır. (Bayramov İ.M., 2015).

Əzəli Azərbaycan torpağı olan Zəngəzur qəzası 1861-ci ildə yaradılmışdır, yaradılmış qəzanın tərkibinə Zəngilan, Qubadlı, Laçın, Qafan, Qorus,Qarakilsə və Mehri daxildir. Yaradılmış qəzanın ərazisi 7892 km$^2$ olmuşdur. 27 sentyabr 2020-ci ildə başlayan və müzəffər və rəşadətli ordumuzun qələbəsi ilə nəticələnən 44 gün

davam edən İkinci Qarabağ müharibəsi nəticəsində 7892 $km^2$ olan ərazinin 4505.5 $km^2$ azad edilmişdir. (Əliyev Ş., 2021).

Müharibədən əvvəlki dövrdə əlbətdə ki, erməni havadarların xoş olmayan fikirləri və Azərbaycan xalqına qarşı bəslədikləri kin illər ərzində daha da qabararaq onların əsl üzünü görməyimizə imkan vermişdir. Onların xəyalı hər zaman mifik "Böyük Ermənistan" adlı dövlətin yaradılması olmuşdur, erməni terrorçular bu arzularını yerinə yetirmək üçün həyata keçirdikləri ən dəhşətli və insanlığa sığmayan faciələrindən biri 1918-ci ildə mart-aprel aylarında baş vermiş soyqırımlardır. Bakı Xalq Komissarları Soveti Stepan Şaumyanın komandanlıq etdiyi bolşevik-daşnak idarəsi dövründə "Müsavat" partiyasının güclənməsi bolşevikləri birləşdirdi. Bolşeviklərin sosial dəstəyi və cəmiyyətdə heç bir imtiyazları yox idi. Onların ilk siyası masada məğlubiyyətləri 1917-ci ildə Bakı-sovetinə keçirilən seçkilərdə "Müsavat" partiyasının çox böyük fərqlə qalib olması bolşevikləri narahat edirdi. Onlar düşünürdülər ki, əgər "Müsavat" partiyası hakimiyyəti ələ alarsa onların burada söz sahibliyi itirə bilərlər. Bunu görən Stepan Şaumyan öz dırnaq arası qəhramanlığını göstərərək, azərbaycanlılara qarşı soyqırım törətməyə hədəfləmiş və Azərbaycan xalqına cəza vermək və əhalinin milli ruhunu zədələmək istəmişdir. Öz məkirli siyasətlərini həyata keçirmək üçün Stepan Şaumyan öz hakimiyyətindən küllu miqdarda pul tələb etmiş və azərbaycanlıların burada üstünlük təşkil etməsinin onu çox qorxutduğunu ifadə edərək rus ordusunun onlara yardım etməsini istəyib. Erməni daşnakların Azərbaycanda yaşayan müsəlman əhaliyə atəş açaraq 30 mart tarixində soyqırıma və qətliamlara başladılar, dənizdə olan hərbi gəmilərlə yanaşı ermənilərin işlədiyi neft barjalarında yerləşdirilmiş toplardan da Bakını atəşə tutdular. 26 mart 1998-ci il tarixində Azərbaycan Respublikası Ümummill lider Heydər Əliyevin fərmanı ilə 31 mart "Azərbaycanlıların Soyqırım Günü" kimi qeyd edilir (bakucity.preslib.az).

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikası daxili problemlərdən əlavə  xarici problemlərlə də üz-üzə idi. Bu problemlərdən istifadə edən erməni terrorçuları Azərbaycanın gözəl guşələrindən olan Qarabağda soyqırımlar törətməyə

başlamış və minlərlə günahsız insanın soyqırımına səbəb olmuşdur. 1991-ci ildə Ermənistan hakimiyyəti əvvəlcə Sovet Sosialist Respublikaları daha sonra Rusiya hakimiyyətinin əli ilə regionda geniş miqyaslı hərbi əməliyyatlara başladı. 1991-ci ilin sentyabr ayında Azərbaycan hakimiyyətinin razılığı olmadan, ermənilər "Dağlıq Qarabağ" adlı qondarma respublikanın təşkil edildiyini elan etdilər, bunun ardınca Qarabağın müxtəlif regionlarında dinc əhaliyə qarşı soyqırımlar törətdilər və nəticədə Azərbaycanın 20%-ni işğal etdilər. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni terrorçular, 1918-ci ildə baş vermiş Azərbaycan xalqına qarşı törədilmiş soyqırımdan sonra baş verən dəhşətli hadisələrdən biridir. Xocalı soyqırımı nəticəsində, 613 nəfər öldürüldü, 487 nəfər yaralandı, 1275 nərəfər əsir götürldü, ermənilərin bu vəhşilikləri tarix boyunca yaddaşlardan çıxmayacaqdır (Nəcəfli T., Dədəyev B., 2013).

## 1.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi və coğrafi əhəmiyyəti

Azərbaycanda iki yeni iqtisadi rayonu Qarabağ və Şərqi Zəngəzur yaradılıb. Azərbaycan paytaxtı ayrıca iqtisadi rayon kimi seçilib və ekspertlərin fikrincə, bu, yerli özünüidarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində gələcək addımlar üçün əlverişli şərait yaradır.

İqtisadi rayonlaşdırmanın yeni prinsipi bütün ölkə üzrə iqtisadi fəallığın və dövlət investisiyalarının səmərəliliyinin artırılması, ölkənin regionlarında sahibkarlığın və biznesin inkişafı, sosial-iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin gəlirlərinin şaxələndirilməsi və mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılmasıdır. Xüsusilə, Covid-19 pandemiyası ilə bağlı mövcud qlobal təhdidlər və çağırışlar kontekstində iqtisadi sektorların sürətli bərpası, iqtisadi geriliyin aradan qaldırılması və məhsuldarlığın artırılması üçün daha geniş perspektivlər mövcuddur.

Digər tərəfdən, iqtisadi rayonlaşdırmanın yenilənməsi və yeni iqtisadi zonaların yaradılması Böyük Vətən Müharibəsində Qələbədən sonra meydana çıxan

obyektiv reallıqları əks etdirir. Ona görə də azad edilmiş zonaların ölkənin iqtisadi və iqtisadi dövriyyəsinə daxil edilməsi iqtisadi zonaların bölünməsinin bərpasını, məhsuldar qüvvələrin və resursların daha dəqiq, rasional bölüşdürülməsini tələb edir.

Nəticədə Cənubi Qafqaz və Xəzər regionunda regional əməkdaşlığın, sabitliyin və etimad mühitinin yaradılmasının vacibliyi ön plana çıxıb. Bu vəziyyət eyni zamanda Azərbaycanın qərb rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirən nəqliyyat dəhlizinin yaradılmasına şərait yaratdı. Azərbaycanı Ermənistan üzərindən Türkiyə ilə birləşdirən Zəngəzur dəhlizinin yaradılması, danışıqlar masasında yer alması ilə Azərbaycan da döyüş meydanlarında qazandığı qələbəni diplomatik müstəviyə daşıdı.

Üçtərəfli razılaşma Azərbaycanın Avrasiyanın nəqliyyat qovşağına çevrilməsi istiqamətində mühüm addım olan Zəngəzur dəhlizinin qarşısındakı maneəni aradan qaldırsa da, bu, həm də regional rifaha əhəmiyyətli töhfə verəcək. Beləliklə, Zəngəzur dəhlizi yaxın günlərdə Cənubi Qafqaz ölkələrinin taleyini və regionda oynanılan oyunları dəyişə bilər.

Yeni Azərbaycan Partiyası (YAP) sözügedən dəhlizi Asiya ilə Avropanı Azərbaycan vasitəsilə birləşdirən və Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi yerləşdirilməsini nəzərdə tutan "Şərq-Qərb dəhlizi"nin "birləşdirici" elementi kimi təqdim edib. Bundan əlavə, İlham Əliyev Zəngəzur dəhlizini Azərbaycanın milli, tarixi və gələcək maraqlarının qarantı kimi təqdim edib. O, həmçinin dəmir yolu və yol tikintisi üçün lazım olan bütün resursları təmin edəcəyinə söz verib. Üstəlik, Azərbaycan prezidenti dövlət xadimi məsuliyyəti ilə Ermənistana sülh təklifi təqdim edib və dəhlizin üçtərəfli sazişə daxil edilməsini Bakı administrasiyası üçün mühüm siyasi uğur kimi qiymətləndirib.

Rusiya və Çin üçün strateji əhəmiyyət kəsb edən, Avropa ilə Asiyanı birləşdirən bu nəqliyyat dəhlizinin həyata keçirilməsi regionun bütün ölkələrinə iqtisadi fayda verəcək.

Bu kontekstdə dəhliz regionun bütün ölkələri üçün böyük iqtisadi əlaqə imkanı yaratmaq qabiliyyətinə malikdir. Bu dəhliz Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində mövqeyini xeyli gücləndirəcək, çünki Azərbaycan "Tarixi İpək Yolu" üzərində yerləşir və Avropa ilə Asiya arasında logistika mərkəzi olmağı qarşısına məqsəd qoymuşdur.

Şərq-Qərb dəhlizi Çin və Aİ üçün böyük əhəmiyyət kəsb edir. 2019-cu ildə iki aktorun ümumi ticarət həcmi 560 milyard avro olub və yeni imzalanmış "Çin-Aİ İnvestisiya Sazişi"ndən sonra ticarət əlaqələrinin daha da dərinləşməsi gözlənilir.

Nəzərdə tutulan dəhlizin asiya ölkələri arasında əlaqəni genişləndirəcəyinə və Türkiyənin hava yolu ilə deyil quru yolu ilə rahat bir şəkildə Çin kimi ölkələrə rahatlıqlar çatmasına şərait yaradacaqdır, həmçinin bu dəhliz vasitəsi ilə türkdilli dövlətləri də birləşdirəcəyinə ümid edilir. Türkiyə Qars-Naxçıvan dəmir yolu xətti ilə Naxçıvanı özünə birləşdirəcək yeni layihə üzərində işləyir. Növbəti mərhələdə bu dəmir yolunun Zəngəzur dəhlizinə qoşulması Azərbaycanla Türkiyə arasında ticarət əlaqələrini yaxşılaşdıracaq, arada olan məsafələri də azaldacaqdır. Bu dəhlizin yaradılması xarici şirkətlərlə yanaşı yerli şirkətlərə də, faydalı olacaq, misal üçün Azərbaycandan Naxçıvana hər-hansı bir məhsulu çatdırmaq üçün İran üzərindən məhsul aparan şirkətlər artıq daha qısa yoldan öz məhsullarını Naxçıvana, Türkiyəyə və Avropa ölkələrinə çatdıra bilər. Zəngəzur dəhlizinin yaradılması Azərbaycanı Avropa ölkələri ilə ticarət əlaqələrini daha da genişləndirməyə imkan verəcəkdir. Ermənilərin bu dəhlizin yaradılmasına qarşı çıxmaları həmçinin, sərhədlərimizin delimitasiyasına mane olmaları bu dəhlizin yaradılmasını gecikdirən amillərdəndir. Dəhlizin yaradılması Bakı-Tbilisi-Qars dəmir yolu xətti Türkiyə və Azərbaycan arasında iqtisadi əlaqələrin aparılmasına yardım etsə də, Zəngəzur dəhlizi ilə müqayisə etsək mövcud şəraitdə daha məsrəflidir, Zəngəzur dəhlizinin açılışı Türkiyə və Azərbaycanın iqtisadi əməkdaşlığını daha da artırmaqla yanaşı daşınma məsafəsini və xərclərini azaldacaqdır (https://xalqqazeti.com/ru/news/91183).

Ümumiyyətlə, Zəngəzur dəhlizindən dinc məqsədlərlə istifadə həm Azərbaycan, həm də Ermənistan üçün faydalı olacaq və regional sabitliyə töhfə verəcək.

Ziddiyyətli reallıqlar və yaranan dəhlizlər haqqında milli rəvayətin yenidən qiymətləndirilməsi və qurulması vacibdir. Bu kontekstdə dəhlizin iqtisadi potensialını və regional sülhə töhfəsini üzə çıxaran səylərin həyata keçirilməsi bütün aktorların maraqlarına uyğundur. Bu kontekstdə İrəvan dəhlizin yaratdığı imkanları görsə, Azərbaycanın ərazi bütövlüyünə hörmət edərək sülh sazişi imzalaya bilər. Ermənilərin sazişi imzalamaqdan imtina etmələri onların beynəlxalq aləmdən təcrid olunmasına gətirib çıxarıb və demək olar ki, Ermənistan ölkə olaraq mühasirə altındadır, əgər onlar Azərbaycan hakimiyyətinin tələblərinə riayət etsə və Zəngəzur dəhlizinin yaradılmasına imkan yaratsa, bu addım onların iqtisadi mühasirəsirəsinə son qoyacaq.

1920-ci ildə Sovet Hökumətinin qurulması ilə Türkiyənin Azərbaycan və Naxçıvanla quru əlaqələri kəsilmişdir. 1990-cı illərin əvvəllərində Qarabağ müharibəsindən sonra 30 ilə yaxındır ki, Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında sovet dövründə yaradılmış nəqliyyat marşrutlarından istifadə olunmur.

Dəhlizin açılması məsafəni azaldacaq və gömrük rəsmiləşdirilməsi üçün əlverişli şərait yaradacaq. Dəhliz region ölkələri arasında kommunikasiyaya müsbət təsir göstərəcək və Türkiyə ilə Azərbaycan arasında yol məsafəsini 400 kilometrə qədər azaldacaq.

Ümumiyyətlə, Zəngəzur dəhlizinin modernləşdirilməsinin Qars-Gümrü dəmir yolu xətti ilə həyata keçirilməsi planlaşdırılır. Bu layihəyə əsasən, Qars-Gümrü-Naxçıvan-Meğri-Bakı dəmir yolu xəttinin tikintisinin ümumi dəyəri 434 milyon ABŞ dollarıdır. Bu layihə reallaşarsa, 13 ildən sonra marşrut üzrə yükdaşıma qabiliyyəti 10 milyon tona çata bilər.

Region ölkələri arasında münasibətlər yaxşılaşarsa, Ermənistanla Türkiyə arasında ticarət həcmi ümumi ticarətin 3%-dən 13%-ə qədər arta bilər. Eyni

zamanda, Azərbaycanın ixracı 1,2 milyard manata (705 milyon dollar) çatmaq potensialına malikdir. Aparıcı sektorlar arasında ÜDM-nin 3%-nə ekvivalent artım ehtimalı emal sənayesində, 2,7%-lə mədənçıxarma sənayesində, 2%-lə xammal sektorunda gəlir.

Bütövlükdə, Qarabağ bölgəsinin müstəqilliyi ortamüddətli perspektivdə Azərbaycan iqtisadiyyatının inkişafına yeni təkan vermiş, kənd təsərrüfatı sektorunu 10,4 faizə, turizm sektorunu 5,5 faizə, mədənçıxarma sənayesini 5,3 faizə, nəqliyyat xidmətlərini 5,3 faizə çatdırmışdır. 4,9%, emal sənayesi isə 4,3%, digər xidmətlərin isə 1,4% artım potensialı var. Ona görə də qeyri-esas sektorlardan əldə edilən gəlirlər ÜDM-in 5,1%-i civarında gəlir əldə etmək imkanına malik ola bilər.

Zəngəzur dəhlizi Çinlə Mərkəzi Asiyanı, eləcə də Ermənistan və Avropanı, eləcə də Azərbaycanı daha asan birləşdirmək potensialına malik mühüm sosial, iqtisadi, geosiyasi və geostrateji layihə kimi xarakterizə olunur. Regionda hərbi və siyasi münaqişələrin azalması ölkələr arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq.

Azərbaycanın Avrasiyanın nəqliyyat qovşağına çevrilməsi ilə Qafqaz regionunda avtomobil və dəmir yolları regionun tranzit təhlükəsizliyini artıracaq, yeni rəqabət və yeni imkanlar yaradacaq. Təbii ki, bu kontekstdə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin tikintisi və marşrutları, Xəzər dənizindən Avropaya uzanan neft-qaz kəmərləri sisteminin tikintisi yeni inkişaflar gətirəcək. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əhəmiyyəti daha da artacaq.

Tarixi İpək Yolunun üzərində yerləşən Azərbaycan Avropa ilə Asiya arasında logistika mərkəzi kimi geniş işlər görür. Şərq-Qərb dəhlizi ilə Çinin Mərkəzi Asiya və Azərbaycan üzərindən Avropaya maneəsiz çıxışı nəticəsində ölkələr arasında ticarət nisbəti artacaq.

Məsələn, 2019-cu ildə Çin və Aİ arasında ticarət dövriyyəsi 720,8 milyard ABŞ dolları təşkil edib. Çin və Aİ arasında yeni investisiya sazişləri artıq Orta Dəhliz vasitəsilə ticarətdə müsbət tendensiyalar nümayiş etdirir. Məsələn, 2018-ci ildə

Çinin Azərbaycanla ticarət həcmi 898,2 milyon ABŞ dolları təşkil etdiyi halda, 2019-cu ildə bu rəqəm 1,4 milyard dolları ötüb (comtrade.un.org).

2019-cu ildə Türkiyə ilə Çin arasında ticarət həcmi 21,8 milyard ABŞ dollarına çatıb, 2020-ci ildə pandemiya dövrünə baxmayaraq ticarət dövriyyəsi 24 milyard dollara çatıb və 2021-ci ilin ilk üç ayında bu rəqəm eyni dövrlə müqayisədə 44 faiz artıb (comtrade.un.org).

2021-ci ilin birinci rübündə BTQ və Mərkəzi Dəhliz üzrə yükdaşıma 2019-cu ilin ilk üç ayı ilə müqayisədə 104% artaraq 396 min 778 tona çatıb ki, bu da Mərkəzi Dəhlizin tələbatının və tutumunun hər il artdığını göstərir. Müharibə başa çatdıqdan sonra Cənubi Qafqazda Azərbaycan və Türkiyə və regionun qonşu dövlətləri arasında birgə əməkdaşlığın qurulması məqsədilə "3+3" modeli (Azərbaycan, Ermənistan, Gürcüstan + Türkiyə, İran, Rusiya) müzakirə edilib. Şərq-Qərb dəhlizi, Dəmir İpək Yolu, tarixi İpək Yolu marşrutu üzrə Avro-Qafqaz Nəqliyyat Dəhlizi (TRACECA) ilə uzanan layihələr regionda layihələrin reallaşması üçün çox vacibdir. Zəngəzur dəhlizi Çin-Avropa Mərkəzi Dəhlizi boyunca Cənubi Qafqaz və Mərkəzi Asiya iqtisadiyyatına müsbət təsir göstərəcək (Aslanlı A., Şerifli Y., 2021).

Bu istiqamətdə Şərq-Qərb nəqliyyat dəhlizinin tikintisi nəticəsində avtomobil və dəmir yolu xətlərinin çəkilməsi Naxçıvanın inkişafına imkanlar yaradacaq. Cənubi Qafqaz daşımalarının əhəmiyyətinin artması ilə Avropa ilə Asiyanı birləşdirmək imkanları inkişaf edəcək. Gələcəkdə (BTQ) dəmir yolu xəttində yarana biləcək nəqliyyat problemlərini həll etməklə Çinin Avropaya ən qısa marşrutla yükləri çatdırmaq imkanı artacaq (Aslanlı A., Şerifli Y., 2021).

Çindən gələn mallar Trans-Sibir vasitəsilə 20 günə, Mərkəzi Dəhlizlə isə 12 günə Avropaya çatdırılır. Çindən Avropaya dəniz yolu ilə malların göndərilməsi 36 gün çəkir (https://politicon.co/az/analytics/33/azerbaijan-and-belt-and-road-initiative-on-the-way-of-becoming-a-regional-transport-center, 2020).

Azərbaycan hökumətinin İqtisadi İslahatlar və Kommunikasiya Mərkəzinin araşdırmasına görə, daşımaların canlanması ilə ixracın həcminin 710 milyon ABŞ dollarına çatacağı təxmin edilir. Dəhlizin açılması həm də hökumətə Bakı-Naxçıvan

aviareyslərinin subsidiyalaşdırılmasına hər il xərclədiyi 10 milyon dollara qənaət etməyə imkan verəcək.

Rusiya ilə İran arasında dəmir yolu xətti üçün yeni imkanlar açılacaq və Ermənistan da gələcəkdə bu dəhlizin verdiyi imkanlardan yararlanacaq.

Ermənistanın Zəngəzur dəhlizinə qarşı hazırkı etirazlarının zaman keçdikcə azalacağı və üçtərəfli saziş çərçivəsində öz maraqları baxımından qiymətləndirildikdə dəhlizin onun işinə mane olmayacağı gözlənilir (Eletek Ö., 2021).

Bundan başqa, Rusiyanın regionun təhlükəsizliyini təmin etmək üçün 1960 əsgər, 90 zirehli transportyor və 380 ədəd texnika və xüsusi texnika yerləşdirməsi dəhlizin təhlükəsizliyini, eləcə də onun rahat işləməsini təmin edəcək (https://president.az/az/articles/view/45924).

Nəticə etibarı ilə Zəngəzur dəhlizi Asiya ilə Avropanı Azərbaycan üzərindən birləşdirən bir çox tranzit daşıma layihələri üçün yeni imkandır. Bu, Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirəcək. Dəmir və avtomobil yollarının tikintisi ilə Zəngəzur dəhlizinin regionda xüsusilə kiçik və orta sahibkarlıq üçün investisiya mühitinin yaradılması və bununla da ölkə iqtisadiyyatının inkişafına töhfə verəcəyi gözlənilir.

Digər tərəfdən, bu iqtisadi töhfənin və nəqliyyat infrastrukturunun üstünlüyünün təkcə Naxçıvan və Azərbaycanla məhdudlaşmaması, həm də regional miqyasda əhəmiyyətli müsbət nəticələr verməsi bu layihənin əsas üstünlüyü olacaqdır.

Bu baxımdan Zəngəzur dəhlizi region ölkələrinin, o cümlədən Ermənistanın iqtisadi inkişafına töhfə vermək potensialına malik olan sülhməramlı layihə kimi qiymətləndirilməlidir.

Digər tərəfdən, bu prosesə region dövlətləri ilə yanaşı, müxtəlif beynəlxalq təşkilatlar və region dövlətləri ilə sıx əlaqələri olan regionun aparıcı dövlətləri də öz töhfəsini verməlidir. Beləliklə, çox güman ki, region ölkələri arasında gərginlik azalacaq və gücünü inkişaf edən iqtisadi əlaqələrdən alan əməkdaşlıq mühiti öz yerini tutacaqdır. Bundan əlavə, region ölkələrində infrastruktur layihələrinin

inkişafı üçün mühüm imkanlar və yeni investisiya imkanlarının yaradılması gözlənilir.

### 1.3. İqtisadi rayonların dirçəlişi üçün dövlətin həyata keçirdiyi siyasət

2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış saziş Dağlıq Qarabağ münaqişəsinə köklü dəyişiklik gətirdi. Sözügedən memorandumdakı maddələr müxtəlif nəticələrə malikdir və iştirakçı dövlətlər üçün fərqli mənalar ifadə edir.

Əslində, razılaşma Rusiya və Azərbaycan üçün uğurlu sayılsa da, Ermənistan üçün bunun əksi olduğu bildirilir. Müqaviləni imzalayan Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistan xalqının müxtəlif şiddətli reaksiyaları ilə üzləşib.

İrəvandakı Azadlıq Meydanı minlərlə etirazçının kütləvi şəkildə “Nikol satqındır”, “Nikol get” kimi şüarlar səsləndirərək, Paşinyanı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mitinqləri qadağan edən hərbi vəziyyət rejimini pozaraq pislədiyinin şahidi olub (https://yenixeber.az/irevanda-muxalifetin-nikol-get-suari-ile-mitinqi-basladi-22589).

Azərbaycan Respubliasının prezidenti İlham Əliyev regionda Ermənistanla hərbi münaqişədən sonra Dağlıq Qarabağa “böyük qayıdış” və yenidənqurma işlərinə başlanıldığını bəyan edib. Azərbaycan dövlətinin sifariş etdiyi tikinti tenderlərində Türkiyə modelini tətbiq edəcək, işğaldan azad edilmiş Dağlıq Qarabağın yenidən qurulmasında Türkiyə şirkətlərinə üstünlük veriləcəkdir. Türkiyə şirkətlərinin yenidənqurma işlərinin qiymətləndirilməsində Azərbaycan Respublikasının ən müasir tikinti avadanlıqları ilə təchizini təmin edir.

Bu təchizat yenidənqurulma işlərində yüksək qiymətləndirilən amillərin başlıca olanıdır. 2020-ci il bütün dünyada olduğu kimi, Azərbaycan üçün də mühüm hadisələrin baş verdiyi il oldu. 2020-ci ilin yanvar ayında Çinin Uhan şəhərində ortaya çıxan və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qlobal pandemiya kimi qəbul edilən Koronavirus (COVID-19) epidemiyası da öz təsirləri ilə qlobal iqtisadi böhrana çevrilmişdir.

BMT-nin İqtisadi və Sosial Münasibətlər Departamentinin "2020-ci ilin ortalarına kimi dünyanın iqtisadi vəziyyəti və perspektivləri" adı altında dərc etdiyi hesabata əsasən, epidemiyanın qlobal iqtisadiyyatlara vurduğu zərər 2020 və 2021-ci illərdə 8,5 trilyon dollara çatmışdır (https://www.un.org/development/desa/dpad/wp-content/uploads/sites/45/publication/WESP2020_MYU_Report.pdf).

Epidemiya ilə əlaqədar məsələnin iqtisadi ölçüsü çərçivəsində aparılan müzakirələrə neft qiymətlərinin birdən-birə ucuzlaşmasının təsiri də əlavə edilib. Bu kontekstdə epidemiyanın yaratdığı iqtisadi problemlərlə yanaşı, neftin qiymətinin tarixən enməsi iqtisadiyyatının, əsasən də neft və təbii qaz hasilatı və ixracının daşıyıcı gücü olan Azərbaycana ciddi təsir edib. Şübhəsiz ki, Azərbaycanın xarici siyasəti baxımından 2020-ci ilin ən mühüm inkişafı sentyabrın 27-də başlanan və 44 gün davam edən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi əməliyyatıdır.

27 sentyabr - 10 noyabr 2020-ci il tarixləri arasında baş vermiş 2-ci Qarabağ müharibəsi 30 ilə yaxındır diplomatiya ilə həll olunmayan problemin nəticəsidir və Azərbaycan ordusunun müstəsna uğurları ilə sona çatıb. 10 noyabr 2020-ci il Azərbaycan respublikasının prezidenti İlham Əliyevin başçılığı Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış saziş Dağlıq Qarabağ münaqişəsinə köklü dəyişiklik gətirdi. Sözügedən memorandumdakı maddələr müxtəlif nəticələrə malikdir və iştirakçı dövlətlər üçün fərqli mənalar ifadə edir. Əslində, razılaşma Rusiya və Azərbaycan üçün uğurlu sayılsa da, Ermənistan üçün bunun əksi olduğu bildirilir.

Müqavilənin maddələrinə görə (https://president.az/az/articles/view/45924):

- Azərbaycan işğal olunmuş Qarabağ bölgəsində öz suverenliyini bərqərar edəcək;
- Dağlıq Qarabağda erməni əhalisinin mövcudluğu davam edəcək;
- Rusiya sülhməramlıları Laçın dəhlizində və Dağlıq Qarabağda yerləşdiriləcək;

• Azərbaycanı Ermənistan vasitəsilə Naxçıvana birləşdirəcək dəhliz yaradılacaq.

Rayonun potensialının artırılması üçün xarici investisiyaların cəlb edilməsi, yüksək texnologiyalara əsaslanan müasir infrastrukturun yaradılması üçün əlverişli şərait vardır. Azərbaycanda yeni iqtisadi rayonlaşdırma strateji əhəmiyyət kəsb edir və bu baxımdan Qarabağ iqtisadi rayonunun qısa və uzunmüddətli perspektivdə inkişaf etdirilməsi yolları nəzərdən keçirilir.

Baxılan məsələlərlə bağlı bir sıra təklif və tövsiyələr hazırlanır. İqtisadi inkişafın obyektiv qiymətləndirilməsi və iqtisadi fəaliyyətin genişləndirilməsinin resurs potensialı məsələləri mühüm əhəmiyyət kəsb edir. Mövcud ehtiyatlardan və ümumilikdə iqtisadi potensialdan səmərəli istifadəyə kompleks və sistemli yanaşma ölkədə iqtisadi sabitliyin artırılmasına və yeni məhsuldar əlavə dəyər mənbələrinin yaradılmasına imkan verir.

Azərbaycan SSRİ-nin tərkibində olanda da qabaqcıl respublikalardan biri olub özünü maliyyə resursları ilə tam təmin edirdi, yəni respublikaya dotasiya verilmirdi. O vaxt Qarabağda nəinki Azərbaycanda, ümumiyyətlə, keçmiş SSRİ-də həyat səviyyəsi, iqtisadi fəaliyyət yüksək səviyyədə idi. Rayonda işsizlik yox idi, hamının sabit gəliri, təchiz olunmuş mənzilləri və evləri, elektrik enerjisi, təbii qaz və içməli su ilə fasiləsiz təmin olunması üçün infrastruktur yaradılmışdı. Rayonda çoxlu kənd təsərrüfatı məhsulları yetişdirilmiş, aqrar-sənaye kompleksləri güclü inkişaf etmişdi.

İşğal nəticəsində Qarabağ regionunda 900 yaşayış sahəsi dağıdılmış, 150 min ev talan edilmişdir, insanların evinə girərək onları yandıran və evlərdə qalan qənimətlərə ələ keçirən ermənilər bununla qalmayıb mövcud infrastruktura da ciddi ziyan vurublar, Azərbaycan təhsilinə vurulan zərbələrdən biri olaraq regionda mövcud olan 693 məktəbi dağıtmaqları sübut kimi göstərilə bilər, ümumilikdə 6 min kənd təssərüfatı müəssisəsi bağlanmış və 1 milyon hektar əkinə yararlı ərazi məhv edilmişdir (https://www.moderator.az/news/354033.html).

İşğal olunmuş ərazilər azad edildikdən sonra Qarabağın, ilk növbədə, Azərbaycanın yeni yaradılmış Qarabağ iqtisadi rayonunun potensialının və

inkişafının daha obyektiv qiymətləndirilməsinin müxtəlif variantları və istiqamətləri nəzərdən keçirilir. “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli fərmanına əsasən, iki yeni iqtisadi rayonun yaradılması da daxil olmaqla, iqtisadi rayonların yeni bölgüsü təsdiq edilib, İşğaldan azad edilmiş rayonların bölgüsü aşağıdakı kimidir:

1) Qarabağ iqtisadi rayonu,

2) Şərqi Zəngəzur iqtisadi rayonu.

Qarabağ iqtisadi rayonunun tərkibinə daxil olan rayonlara Xankəndini, Şuşanı, Xocalını, Xocavəndi, Ağdamı, Tərtəri, Füzulini və Bərdəni aid edə bilərik.

Yeni qüdrətli Qarabağ iqtisadi rayonunun formalaşması tarixi reallıqlara və qanunauyğunluqlara əsaslanır. Hazırda Qarabağ iqtisadi rayonunun bütün ərazisində dirçəliş və bərpa işlərinə intensiv başlanılıb (Əliyev İ., 2021).

İşğaldan azad edilmiş ərazilərin hər yerində genişmiqyaslı minatəmizləmə işləri aparılır, elektrik sistemləri, yeni su elektrik stansiyaları, elektrik enerjisinin ötürülməsi üçün elektrik yarımstansiyaları bərpa edilərək tikilir.

Təbii qaz və içməli su təchizatı üçün güclü sistemlər yaradılır. Beynəlxalq hava limanları tikilir (onlardan biri - Füzuli Beynəlxalq Hava Limanı 2021-ci ilin sentyabrında fəaliyyət göstərəcək), beynəlxalq avtomobil yolları, dəmir yolları çəkilir, ən böyük Ağdam sənaye parkının təməli qoyulub. Bütün bunlara ən zəngin təbii sərvətlər - Qarabağın faydalı qazıntıları və onun təkcə Azərbaycanda deyil, bütün regionda strateji əhəmiyyəti imkan verir.

Azərbaycanın təbii sərvətlərinin talanmasında qeyri-qanuni iştirak etmiş ermənilər və bir sıra xarici şirkətlər tərəfindən işğal olunmuş Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı nəticəsində Azərbaycan iqtisadiyyatına dəymiş zərərin obyektiv qiymətləndirilməsi üçün təsirli tədbirlər, o cümlədən hüquqi tədbirlər görülməli olacaq.

# II FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ CARİ VƏZİYYƏTİNİN TƏDQİQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğalı nəticəsində dəymiş zərərin qiymətləndirilməsi

Dünyanın və Azərbaycanın qədim yaşayış yerlərindən hesab olunan Qarabağ və Şərqi Zəngəzur regionu, resursları ilə zəng və iqtisadi potensial cəhətdən müvafiq yatırımlar üçün əlverişli yerdir. Əvvəldə qeyd etdiyim kimi Ermənilərin buraya köçürülməsi və onların burada Azərbaycan xalqına qarşı üsyanlar etməsi sonda da dinc əhaliyə qarşı soyqırım törədərək ölkəmizi işğal etməsi bizim özümüzə məxsus resurslarımızdan məhrum olmağımıza gətirib çıxarmışdır.

Münaqişənin 1991-ci ilin sonu və 1992-ci ilin əvvəllərində hərbi mərhələsi başlanmış, keçmiş possovet məkanın dağılması bundan istifadə edən erməni hakimiyyəti bu məsələni özləri üçün fürsətə çevirərək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını işğal etdilər. Ümumilikdə 14368 kvadrat kilometr ərazi işğal edildi bu da Azərbaycanın 16,6 faizini əhatə edir. İtirilmiş regionlardan sahəcə ən böyük olan Kəlbəcər rayonudur ki, bu rayonun ümumi sahəsi 3050 kvadrat kilometri əhatə edir. Kəlbəcərdən sonra müvafiq olaraq ölçüsünə görə itirilən Azərbaycan ərazisi, Laçın rayonu 1893 kvadrat kilometr ərazisi ilə, 3-cü yerdə isə Xocavənd rayonu 1458 kvadrat kilometr ilə öz yerini tutur. Mədəniyyət vətəni hesab olunacaq Qarabağ regionunun göz bəbəyi olan Şuşanın ərazisi isə 289 kvadrat kilometr sahəni əhatə edir. Digər regionlara nəzər yetirsən, Xankəndi 926, Ağdam 1154, Xocalı 970, Cəbrayıl 1050, Füzuli 1112, Tərtər 957, Qubadlı 802, Zəngilan 707 kvadrat kilometr ərazini əhatə edir. Daha ətraflı məlumatları aşağıdakı cədvəldə görmək mümkündür.

**Cədvəl 1: Qarabağ regionun münaqişə nəticəsində1988-1993-cü illər ərzində itirilmiş iqtisadi ərazi potensialı**

| İtirilmiş ərazilər | Sahəsi (km2) | Əhalisi (min.nəfər.) |
|---|---|---|
| Xankəndi | 926 | 57,0 |
| Ağdam | 1154 | 15,8 |
| Xocavənd | 1458 | 9,01 |
| Xocalı | 970 | 11,6 |

| | | |
|---|---|---|
| Şuşa | 289 | 24,9 |
| Cəbrayıl | 1050 | 52,05 |
| Füzuli | 1112 | 95,94 |
| Tərtər | 957 | 97,3 |
| Laçın | 1893 | 69,1 |
| Kəlbəcər | 3050 | 43,7 |
| Qubadlı | 802 | 31,5 |
| Zəngilan | 707 | 32,5 |
| Qarabağ Regionu üzrə | 14368 | 540,4 |
| Azərbaycan Respublikası | 86600 | 7440,0 |
| Qarabağ regionunun Respublikada xüsusi çəkisi %-lə | 16,6 | 7,3 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib olunmuşdur.

Ərazi potensialı iqtisadi baxımdan ən mühüm inkişaf kateqoriyası hesab edilir. Burada iqtisadi inkişafa təsiri ilə seçilən mineral xammal yataqları, kənd təsərrüfatına yararlı torpaqlar, turizmin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərən təbii-iqlim şəraiti və müalicə suları xüsusi yer tutur.

İşğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bizə müxtəlif növ faydalı qazıntılardan faydalanmağa imkan verəcəkdir, uzun illərdir işğalçılar Azərbaycan torpaqlarını sömürüb və bunu qeyri-qanuni yollarla təbiəti düşünməyərək həyata keçiriblər. Bu ərazidə 163 faydalı qazıntı yataqları mövcuddur, buraya daxil olan 5 qızıl yatağı, ermənilərin əsas gəlir yerinə çevrilmişdir. Bundan əlavə regionda tikinti materialları üçün 10 mişar daşı, 21 üzlük daş, 9 gil və 20 sement xammalı əlverişli yataqlarda mövcuddur. Həmçinin Qarabağ zəngin təbiəti ilə seçilir, regionda 215 təbiət abidəsi yəni şəlalələr, su hövzələri buraya daxildir (https://modern.az/az/news/153302).

Ərazi potensialında aqrar-sənaye kompleksinin aparıcı sahəsi olan kənd təsərrüfatının, və onun inkişafında mühüm rol oynayan torpaq-iqlim ehtiyatları xüsusi yer tutur.Bu baxımdan Qarabağ Regionu istisnalıq təşkil edir. İşğal dövrü ərzində demək olar ki, ÜDM istehsalında əhəmiyyətli rola malik olan kənd təsərrüfatına yararlı torpaq sahələri dövriyyədən çıxmış və onlardan istifadə etmək mümkün olmamışdır (Vəliyev A.H. 2019: s.86).

Hesabat materiallarının təhlili göstərir ki, 30 illik işqal müddəti ərzində Qarabağ Regionuna daxil olan 14,4 min km2 ərazidə yerləşən, öz məhsuldarlığı ilə seçilən əkin sahələri,o, cümlədən dənli paxlalı, ərzaq təchizatında əsas rola malik olan buğda əkin sahələri, arpa əkin sahələri, dənlik qarğıdalı sahələri, texniki bitki əkin sahələri, kartof tərəvəz əkin sahələri, yem bitkilərinin əkin sahələri,üzümlük sahələri,heyvandarlığın inkişafı və məhsullarının istehsalı üçün zəruri olan yay otlaq sahələri təbii potensialdan istifadəyə imkan verməmişdir.

**Qrafik 1: Qarabağ Reqionun və Şərqi Zəngəzur iqtisadi rayonlarının 1988-1993-cü illər ərzində itirilmiş yararlı torpaq resurs potensialı (hektarla)**




**Mənbə:** https://au.edu.az/upload-files/menu/ipekyolu/2021_03/6MammadovaSh.pdf

Aparılmış təhlillər göstərir ki, Qarabağ Regionunun işğal olunmuş ərazilərində kənd təsərrüfat dövriyyəsindən çıxarılmış və itirilmiş ərazilərin ümumi kənd təsərrüfatına yararlı ərazilərin sahəsi 647,5 min hektar, əkinə yararlı sahələr 185,5 min hektar, meyvə və giləmeyvə sahələri 2,29 min hektar, meşə əraziləri 246,69 min hektar, üzümlük sahələri 39,96 min hektar və meşə ərazisi 246,69 min hektar təşkil edir, müvafiq ərazilərin respublika ilə nisbətdə itirilmiş ərazilərin faizləri isə Qrafik 1-də göründüyü kimidir. (https://au.edu.az/upload-files/menu/ipekyolu/2021_03/6MammadovaSh.pdf).

Göründüyü kimi Qarabaq işğal regionu üzrə respublikanın kənd təsərrüfatının inkişafı baxımından itirilmiş iqtisadi potensialı çox yüksək göstəricilərlə xarakterizə olunur və qeyd etmək lazımdır ki, bu 30 illik bir müddəti əhatə etməklə milyon manatlarla ümumu daxili məhsul itkisi ilə nəticələnmiş, eyni zamanda ərzaq

təhlükəsizliyi baxımından respublikanın idxal aslılığına əhəmiyyətli dərəcədə öz təsirini göstərmişdir.

Təkcə 1988-ci ildə Qarabağ üzrə kənd təsərrüfatına yararlı ərazilərin itirilməsinə görə ümumi taxıl məhsulunun 14,3 faizi, kartof istehsalının 6,3 faizi, üzümçülük sahəsi üzrə isə 31,5 faizindən məhrum olmuşduq. Ət və süd istehsalına gəldikdə isə burada da mənzərə heç ürək açan deyil, Azərbaycanın 14,5 faiz ət istehsalı və süd istehsalının 17,1 faizi bu regionların payına düşürdü. Verilən məlumatlar əsasında deyə bilərik ki, 30 il ərzində Azərbaycan əkinçilik fəaliyyətinə müvafiq olaraq, taxılçılıqdan 5,4 milyon, üzümçülükdən 9,7 milyon, kartof istehsalından 70,5 min, ət məhsullarından 600 min və süd məhsullarından 2,27 milyon ton məhsul itirilmişdir (www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf).

Azərbaycanın səfalı yerlərindən çıxan təbii minerallar sayəsində öz vəziyyətlərini yaxşılaşdıran Ermənistan ərzaq ilə təmin edə biliblər. Ermənistanın şərab istehsalının 50 faizindən çox hissəsi Qarabağ regionuna düşür ki, bu da onların daxili valyutalarının artmasına gətirib çıxaracaqdır. Əlavə olaraq burada yerləşən bulaqları da, özününküləşdirərək, öz brendləri kimi dünya bazarına satışa təqdim ediblər. 2019-cu il ərzində işğal olunan ərazilərin təkcə 247,31 milyon hektar ərazisindən kənd təsərrüfatına yararlı bitkilərin yetişdirilməsi ilə 2,51 milyon sentner ərzaq məhsulları əldə etmişdir. Müvafiq olaraq bunların 1,18 milyon sentneri taxıl, 1,21 mln sentneri və ya 49 faizi buğda qalan 0,12 sentner digər məhsullar yetişdirirdilər (www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf).

**Qrafik 2: Qarabağ Reqionun kənd təsərrüfatına yararlı torpaq sahələrindən 2019-cu ildə Ermənistan Respublikası tərəfindən istehsal olunmuş kənd təsərrüfatı məhsullarının həcmi (sentnerlə)**




**Mənbə:** "Вестник Кавказа" İnformasiya Agentliyinin 6 fevral 2021 tarixli analitik məqaləsində qeyd olunmuş məlumatlar əsasında tərtib olunmuşdur.

**Cədvəl 2: Qarabağ Reqionun münaqişə nəticəsində işqal olunmuş kənd təsərrüfatına yararlı torpaq sahələrindən 2019-cu ildə Ermənistan Respublikası tərəfindən istehsal olunmuş kənd təsərrüfatı məhsullarının həcmi (sentnerlə)**

| Qarabağ regionu | Taxıl və paxlalılar, Buğda, Kartof, Tərəvəz |
|---|---|
| Əskəran | 439161,7 |
| Hadrut | 376552 |
| Ağdərə | 830240,1 |
| Xocavənd | 413188,6 |
| Kəlbəcər | 4470 |
| Şuşa | 11041 |
| Laçın | 431948 |
| Qarabaq Regionu üzrə cəmi | 2506601 |

**Mənbə:** "Вестник Кавказа" İnformasiya Agentliyinin 6 fevral 2021 tarixli analitik məqaləsində qeyd olunmuş məlumatlar əsasında tərtib olunmuşdur.

Əldə olunan məlumatlardan məlum olur ki, Ermənistan öz gəlirlərinin böyük hissəsini Qarabağ üzərindən qazanırdı, bu düşmənin Azərbaycan resursları hesabına zənginləşməsinə və inkişafına dəstək olmuşdur.

Həmçinin qeyd olunmalıdır ki, bu göstəricilər xarici informasiya agentliklərinin müxtəlif yollarla əldə olunmuş istisimar nəticələrinin üz qabığını təşkil edir. Əslində isə istisimarın faktiki iqtisadi göstəriciləri verilmiş

informasiyadan qat-qat yüksək rəqəmlərlə ifadə olunur və bu 30 illik bir işğal-istisimar dövrünü əhatə edir.Vəhşicəsinə istismar, yararsız hala salınmış və minalanmış məhsuldar torpaqlar, qırılıb məhv edilmiş meşə massivləri,infrastruktur, yaşayış məntəqələri, xüsusi qorunan təbiət əraziləri, işğaldan azad olunmuş Qarabağ Regionu ərazilərindən Azərbaycan Respublikasına miras qalmış "iqtisadi potensial"ın bərpası isə, xüsusi reabilitasiya proqramlarının həyata keçirilməsini, xüsusi strateji istiqamətin qəbul olunmasını və milyard manatlarla əlavə kapital qoyuluşu xərcləri tələb edir.

Qarabağ Regionu intensiv inkişaf potensialına malik, perspektivli regional ərazi kimi xarakterizə olunur. Regionun ərazisində salınacaq ən müasir "Ağıllı şəhər", "Ağıllı kənd" lərin enerji təminatında çayların, günəş və külək enerji potensiallarından istifadə edəcək kiçik elektrik stansiyalarının tikintisi üzrə əsaslı tədbirlər görülür. İqtisadi potensiala malik olan region aqrar-sənaye kompleksinin inkişafı baxımından da yüksək qiymətləndirilir. Bunu, ərazinin aqrar kompleksini xammala təmin edən, kənd təsərrüfatının inkişafına şərait yaradan təbii-resurs potensialı, həmçinin işqaldan əvvəlki dövr ərzində tarixi inkişaf nəticəsində formalaşan emaledicı sənaye kompleksinın geniş strateji istiqaməti müəyyən etməyə imkan verir. Belə ki, təkcə 1988-1992-ci illər ərzində region Azərbaycan Respublikasında istehsal olunan şərab materiallarının 35%-ni, heyvandarlıq mənşəli yağların 25,2%-ni, ət istehsalının 5,0%-ni, konserv istehsalının 6,9%-ni, yun istehsalının 19,5%-ni, xam ipəyin 13,5%-ni, mineral suların isə 15,0 %-ni özündə birləşdirən xüsusi çəkiyə malik idi. Bnunla yanaşı region ərazisi sənaye məhsulu istehsalının 299,6 və sənaye əsas fondlarının 75,4 mln manat hissəsini özündə birləşdirirdi.

Bütün bu tarixi inkişaf bazasını nəzərə alaraq aqrar-sənaye kompleksinin inkişaf strategiyasını və reabilitasiya-dirçəliş proqramının bizim fikrimizcə bu istiqamətdə qurulması və mərhələli həllinin təmin edilməsi zəruri davamlı inkişaf variantı kimi qəbul olunmalıdır. Apardığımız təhllilər və hesablamalar göstərir ki, aqrar-sənaye kompleksinin qeyd olunan isiqamət bazası və müasir texnologiya

əsasında inkişaf etdirilməsi, yaxın perspektivdə, xüsusən 2025-2030-cu illər ərzində işqaldan azad olunmuş Qarabağ Regionun ərazisində bütün kənd təsərrüfatı məhsulları istehsalını, 1988-1992-ci baza illərinə nisbətən 1,5-2,0, şərab məhsulları istehsalını 1,0-1,5, konserv istehsalını 2,5-3,0, mineral sular istehsalını 3,0-3,5 , xam ipək istehsalını 1,0-1,5 dəfə artırmaq üçün hərtərəfli imkan və şəraiti formalaşdırmaq mümkün olacaqdır.Ona görə tarixi inkişaf ixtisaslaşmasının aqrar-sənaye kompleksinin reabilitasiya və dirçəliş strategiyasında nəzərə alınması ən zəruri problemlərdən biri kimi qəbul olunmalıdır.

## 2.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoyuluşlarının qiymətləndirilməsi

Ölkəmiz Ermənistanı diz çökdürərək Qarabağ zəfərinə nail olmuşdur və bununla bağlı olaraq, postmüharibə dövründə uzun illər ərzində yığılıb qalmış problemlərin sistemli həllinə ehtiyac vardır. Bunun üçün həmin problemlərin mahiyyətlərinin açıqlanması vacibdir. Dövlətin bu sahədə atdığı addımlar, hazırladığı strategiya və konsepsiyalar, fəaliyyət proqramları alim və tədqiqatçıların üzərinə böyük vəzifələr qoyur. Bu istiqamətlərdə metodoloji yanaşmaların ölkəmizin milli iqtisadi inkişaf xüsusiyyətlərinə əsasən hazırlanması tələb edilir. Mövcud resurs potensialına, əhalinin məşğulluq ənənələrinə və müasir dövrün mütərəqqi təcrübəsinə istiqamətlənmiş mexanizmlər gərəkdir. Belə vəziyyətdə yüksək texnologiyaların tələblərinə uyğun gələn praktiki alətlərin tətbiqi daha çox səmər verə bilər. Dağıntıların və işğal dövründən qalan zərərlərin həcmi xeyli böyükdür (Əliyev Ş., 2021).

Bu ərazilər ekoloji fəlakət zonasına çevrilmiş və hər tərəf minalanmışdır. Həmin yerlərdə, həmçinin mövcüd olan bütün növ infrastruktur məhv edilmişdir. Burada əsas məqsəd infrastruktur və xüsusi təyinatlı, eyni zamanda insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin qorunması və ərazilərin bərpa proseslərinə hazırlanması tədbirlərinin həyata keçirilməsidir (https://www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf).

Dövlət tərəfindən postmüharibə ərazilərinin bərpa olunması və dirçəldilməi istiqamətində tədbirlər görülməkdədir. 4 yanvar 2021-ci il tarixli ölkə Prezidentinin "Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Sərəncam ilə şuranın üzvlərinin təsdiq olunması bunun bariz nümunəsidir (Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında AR Prezidentinin Sərəncamı. Bakı şəhəri, 4 yanvar 2021-ci il. https://president.az/articles/49877).

Bu isə Qarabağın dirçəldilməsi prioritetləri ilə bağlı problemlərin daha dərindən öyrənilməsinə imkan verir. Bərpa işləri üzrə hədəflərin elmi-iqtisadi və sosial amillər baxımından obyektiv olaraq əsaslandırılması üçün daha geniş imkanlar formalaşdırılır. Kənd təsərrüfatının inkişafı məqsədilə əlverişli olan potensial nöqteyi-nəzərindən bu istiqamətdə fəaliyyətin gücləndirilməsi mümkündür. Həm də aqrar sektorun genişləndirilməsi, emal müəssisələrinin yardılması hesabına müxtəlif ərzaq məhsullarının istehsal imkanları artar. Beynəlxalq təcrübədən bəhrələnməklə, maksimum ekoloji təmiz ərzaq məhsullarının yetişdirilməsi və tədarük edilməsi perspektivləri diqqət çəkir.

Regionda infrastruktur obyektləri şəbəkəsinin çevik və daha intensiv şəkildə yaradılması günün tələbidir. Ərazilərdə enerjidaşıyıcılarla təminatın gücləndirilməsi regionun daha tez bərpasına və dirçəldilməsinə gətirib çıxarar. Enerji infrastrukturunun yaradılması ilə bərabər, həm də bərpa olunan enerji üzrə dəqiq potensialın hesablanmasına da xüsusi önəm verilməkdədir. Bu ərazilərin hidroenerji, günəş, külək, bioenerji və geotermal enerji kimi bərpa olunan güclü enerji mənbələri vardır. Qeyd olunan potensialının qiymətləndirilməsindən ötrü daha çox işlər görülməli və iqtisadi səmərəlilik qiymətləndirilməlidir.

Postkonfilikt ərazilərdə bərpa proseslərinin daha nizamlı və mütəşəkkil şəkildə həyata keçirilməsinin prinsip və meyarları da təkmilləşdirilməkdədir. Dövlətin bütün istiqamətlər üzrə müəyyən mənada obyektiv reallıqları nəzərə alan konseptual yanaşmalarının olduğunu görürük. Konkret fəaliyyət istiqamətlərinin əsas konturlarının mövcudluğunun bərpa işlərinin sürətləndirilməsinə əhəmiyyətli təsirini proqnozlaşdırmaq olar. Bütün bunlar, həm də regionda olan böyük təbii və iqtisadi potensialın daha obyektiv qiymətləndirilməsi, adekvat tədbirlərin görülməsi

üçün vacib şərtlərdəndir. Postkonflikt ərazilərin özünüinkişafetmə xüsusiyyətlərinin hərəkətə gətirilməsində determinant rolunu oynaya biləcək fəaliyyət mexanizmləri lazımdır. Tətbiq olunan alətlərin düşünülmüş və eyni zamanda səmərəlilik prinsipləri nəzərə alınmaqla həyata keçirilməsi məqsədəuyğundur. Keçmiş SSRİ dövrünün parametrlərindən baxdıqda və inzibati bölgüdən yanaşdıqda Qarabağda respublikamızın meşə zolağının 25 %-i və su ehtiyatlarımızın təxminən yarısı yerləşirdi. Eyni zamanda, kənd təsərrüfatı sahəsində istehsal olunan məhsullarının 40 faizi bu regionda istehsal edilirdi. Postkonfilit ərazilərin məhsuldar qüvvələrindən, təbii resurslarından və inkişaf potensialından kompleks istifadənin gücləndirilməsi hazırkı şəraitdə əsas vəzifələrdəndir. Ərazilərin operativ şəkildə inventarlaşdırılmasının aparılması onu göstərir ki, dövlətimiz bu regionun potensialını daha operativ olaraq hərəkətə gətirməyi strateji məqsəd kimi qarşıya qoymuşdur. İşğal olunmuş ərazilərin azad edilməsi ölkə iqtisadiyyatının gücünün artırılmasını təmin etməklə yanaşı, iqtisadiyyatımızın rəqabət qabiliyyətinin gücləndirilməsinə, yüksək texnologiyalar əsaslı iqtisadiyyat sahələrinin yaradılmasına, dayanıqlı iqtisadi artım mənbələrinin formalaşdırılmasına, milli gəlirin yüksəlməsinə imkan verəcəkdir. Postkonflikt ərazilərin bərpası və inkişaf etdirilməsi ölkə iqtisadiyyatına əlavə qatqılar vermək potensialına malikdir (Müzəffərli N., İsmayılov E., 2010).

Hesab edirik ki, kənardan cəlbolunan investisiyalar da lazımdır, amma ilk növbədə, ölkəmiz özünün iqtisadi gücünə və maliyyə potensialına xüsusi diqqət yetirməlidir. Xüsusilə, regional iqtisadi inkişafda yeni metodoloji-praktiki yanaşmaların ortaya çıxacağı qənaətindəyik. Qarabağa daxıl olan rayonlarımızın iqtisadi fəaliyyət strukturu çoxşaxəlidir və güclü resurs potensialı mövcuddur. Burada perspektiv iqtisadiyyat sahələrinin formalaşdırılması və intensiv inkişaf etdirilməsi yetərincə real olaraq baxıla bilər.

İşğaldan sonrakı dövrdə kompleks yanaşma yolu ilə ərazilərin sosial-iqtisadi dirçəldilməsinin təşkili və sürətləndirilməsi tədbirləri reallaşdırılmalıdır.

Düşünülmüş və əsaslandırılmış strateji, eyni zamanda, konseptual yanaşmalara söykənmiş dövlət iqtisadi siyasəti formalaşdırılmalıdır. Postkonflikt ərazilərin bərpa

edilməsinə strateji yanaşmalar olduqca vacibdir və özündə, ilk növbədə, obyektiv reallıqları, yaxın və uzaq perspektivləri ehtiva etməlidir. Bundan əlavə, ölkəmizin bu sahədə milli iqtisadi maraqları ilə uzlaşdırılmış prioritet fəaliyyət istiqamətləri artıq müəyyənləşdirilmişdir.

Ümumilikdə, bir qrup tövsiyələr və təkliflərin nəzərə alınması bu proseslərin daha səmərəli təşkilinə imkan verə bilər:

- postkonflikt vəziyyətdə hər bir ölkənin sosial-iqtisadi inkişaf modelinə və işğaldan azad olunmuş ərazilərin yüksək potensiala malik, həm də perspektivli sosial-iqtisadi inkişaf istiqamətlərinə uyğun olaraq bərpa və dirçəliş konsepsiyasına üstünlük verilməsi daha məqsədəuyğundur;
- dirçəldilməsi nəzərdə tutulan ərazilərin sosial-iqtisadi inkişafının hədəfləri əsas götürülməklə, tələb olunan maliyyə təminatı və investisiyaların cəlbi mexanizmlərinin həlli istiqamətində təsirli və işlək tədbirlər görülməlidir;
- işğaldan sonrakı vəziyyətdə reallaşdırılan davamlı və sistemli tədbirlərin maksimum səmərəli olması, məcburi köçkünlər və ümumilikdə cəmiyyət, ölkə əhalisi tərəfindən məmnunluqla qarşılanması və qiymətləndiriməsi üçün dövlət tərəfindən həyata keçirilən kompleks tədbirlərin və sərf olunan maliyyə resurslarının şəffaflığı, səmərəliliyi, təyinatı üzrə istifadə olunması daim xüsusi diqqət mərkəzində saxlanılmalıdır və s.

İşğaldan azad edilmiş ərazilərimizin iqtisadiyyata faydasını artırmaq, ərazilərin mövcuq iqtisadi şərait üçün davamlı hala gətirmək, insanların rahat yaşamaları üçün yaşayış binalarının və içtimai yerlərin tikintisinə, mövcud iqtisadi şəraitdə dövlət və özəl müəssisələri bura cəlb etmək. Uzun müddətli sosial inkişafda bu hədəflərə çatmaq üçün müxtəlif mexanizmlər hazırlamaq zərurəti formalaşır ("https://president.az/az/articles/view/51773").

Məlumdur ki, regional investisiya siyasəti regionun davamlı sosial-iqtisadi inkişafı məqsədilə bütün mülkiyyət formalarındakı investisiya resurslarının cəlb edilməsi və səmərəli istifadəsi üçün dövlət, ərazi hakimiyyət orqanları və idarələri tərəfindən həyata keçirilən tədbirlər sistemidir. Regional investisiya siyasəti

investisiya fəaliyyətinin stimullaşdırılmasına və regionda əlverişli investisiya mühitinin yaradılmasına yönəldilmiş investisiya proseslərini tənzimləmək üçün dövlət orqanlarının və ölkənin təsis qurumlarının prinsipləri, metodları və tədbirləri məcmusudur. Regional investisiya siyasətinin məqsədi bütün cəmiyyətin maraqlarına uyğun əlverişli investisiya imkanları və amillərindən maksimum istifadə etmək və investisiya risklərinin müəyyən bir regionun sosial-iqtisadi vəziyyətinə mənfi təsirini minimuma endirməkdir. Təcrübi olaraq regional investisiya siyasətinin məqsədlərinə nail olmaq onun həyata keçirilməsi mexanizminin səmərəli təşkili ilə əlaqədardır. Regional investisiya siyasətinin formalaşdırılması və həyata keçirilməsi sistemi bir-birinə bağlı olan bir sıra bloklardan ibarətdir.

Birinci bloka regional investisiya siyasətinin və buna uyğun olaraq həyata keçirilmə mexanizminin asılı olacağı əsas amillər daxildir. Bunlara aiddir (Герасенко В.П. 2016: s.66-67):

- regiondakı investisiya mühiti;
- regionun investisiya potensialının formalaşması göstəriciləri;
- investisiya risklərinin səviyyəsi;
- daxili və xarici təsir amilləri.

Yuxarıda göstərilən amillər əsasən regional iqtisadiyyatın xüsusiyyətləri ilə əlaqələndirilir ki, bu da öz növbəsində təbii-coğrafi, tarixi, demoqrafik və digər amillər kompleksini müəyyənləşdirir. Xarici amillər respublika qanunvericiliyi, milli iqtisadi və investisiya siyasəti ilə müəyyən edilmiş fəaliyyət şərtlərinin təsiri ilə əlaqələndirilir.

İkinci blok birbaşa investisiya siyasətinin formalaşdırılması mərhələlərini əhatə edir (Герасенко В.П. 2016: s.66-67):

- investisiya siyasətinin hədəflərinin və əsas prioritetlərinin müəyyənləşdirilməsi;
- regional investisiya proqramının formalaşdırılması;
- regional investisiya siyasətinin həyata keçirilməsi prinsiplərinin hazırlanması.

Regional investisiya siyasətinin hədəfləri və prioritetləri müəyyən bir regionun ümumi sosial-iqtisadi siyasətinin məqsəd və vəzifələrindən asılıdır.

İnvestisiya siyasətinin həyata keçirilmə mexanizminin üçüncü bloku nəzərdə tutulan məqsədlərə çatmaq üçün bir sıra elementlərdən ibarətdir. Bu blokun əsas elementləri tətbiq olunan iqtisadi, inzibati, sosial-psixoloji idarəetmə metodları kompleksi və fəaliyyətinin hüquqi, təşkilati, informasiya təminatı sistemidir. Regionun sosial-iqtisadi inkişafının nəzərdə tutulant məqsədlərinə çatmaq üçün regional hakimiyyət orqanlarının investisiya prosesinin bütün iştirakçılarına məqsədyönlü təsiri investisiya siyasətinin həyata keçirilməsi mexanizminin mahiyyətini təşkil edir. Regional investisiya siyasətinin həyata keçirilməsi mexanizmi sosial-iqtisadi prioritet vəzifələri həll etmək üçün dövlət orqanlarının investisiya prosesi iştirakçılarına təsir göstərdiyi bir sıra alətlər (metodlar, modellər) kimi başa düşülməlidir (Герасенко В.П. 2016: s.66-67).

Təklif olunan mexanizmin əsas məqsədləri bunlardır:

- regiondakı investisiya mənbələrinin səfərbər edilməsi;
- investisiyaların ən yüksək səmərəliliyin təmin olunduğu iqtisadiyyatın sahələrində formalaşması və istiqamətləndirilməsi;
- investisiya istifadəsinin səmərəliliyinin artırılması;
- regiondakı investisiya fəaliyyətinin inkişafı.

Regionda investisiya siyasətinin həyata keçirilmə mexanizmi investisiya mənbələrinin cəmlənməsi və səfərbər edilməsi, səmərəli istifadəsinə nəzarətin təşkili, investisiya sahəsində müsbət meyillərin gücləndirilməsinə və mənfi olanların zəifləməsinə yönəlmiş tənzimləyici təsirlərin inkişafı prosesi kimi xarakterizə edilə bilər.

Regional investisiya siyasətinin həyata keçirilmə mexanizminin bir xüsusiyyəti, iştirak edən bütün tərəflərin maraqlarının uyğunlaşdırılmasına yönəldilməsidir. Buna görə də nəzərdən keçirilən mexanizmin strukturunda əhəmiyyətli yeri investisiya prosesi iştirakçılarının təkcə bir-biri ilə deyil, həm də

xarici mühit ilə qarşılıqlı əlaqəsini təmin edən stimullaşdırma bloku tərəfindən tutulur.

İnvestisiya siyasəti regionda investisiya fəaliyyətinin ən vacib tərəfləri kontekstində investisiya strategiyasının həyata keçirilməsinin bir formasıdır. Regionun sosial-iqtisadi inkişafı məqsədi ilə plan və proqramların həyata keçirilməsi investisiya strategiyasının formalaşdırılmasını tələb edir. İnvestisiya strategiyasından fərqli olaraq regional investisiya siyasətinin formalaşdırılması regionun strateji qərarları və mövcud maliyyə imkanları çərçivəsində həyata keçirilən orta müddətli idarəetmə prosesidir.

İnvestisiya strategiyası investorlar üçün bərabər şərait yaratmağa və regiondakı ümumi investisiya mühitini yaxşılaşdırmağa kömək edir. Region üçün investisiya strategiyasının hazırlanması və reallaşdırılması iqtisadi artımın keyfiyyət xüsusiyyətlərinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması probleminin həllinə yönəlmiş mürəkkəb prosesdir (Самогородская М.И. 2012: с.48).

İnvestisiya strategiyası maliyyə resurslarının cəlb edilməsi üçün mexanizmlərin yaradılmasına, onların səmərəli istifadəsinə və regionun innovasiya potensialının həyata keçirilməsinə yönəlir. İnvestisiya strategiyasının hazırlanmasında məqsəd region iqtisadiyyatının strateji əhəmiyyətli kəmiyyət və keyfiyyət xüsusiyyətlərini, inkişafı üçün mövcud mənbələri qiymətləndirmək və sosial problemlərin həlli məqsədilə investisiya cəlb etmək üçün əlverişli şərait yaradan tədbirləri müəyyənləşdirməkdir. Belə bir strategiyanın formalaşdırılmasının əsas vəzifələri aşağıdakılar olmalıdır:

- regionun sosial-iqtisadi inkişafının təmin edilməsi və rəqabətqabiliyyətli sahələrin işləməsi üçün şərait yaradılması;
- regionun investisiya ehtiyaclarının maksimum ödənilməsi;
- investisiya cəlbediciliyinin regionun sosial-iqtisadi inkişafına təsirinin müəyyənləşdirilməsi;
- zəruri investisiya mənbələrinin daxil olmasını təmin etmək üçün regionun investisiya cəlbediciliyini tənzimləyən tədbirlərin hazırlanması;

- regionun investisiya cəlbediciliyinə təsir göstərən səbəblərin aydınlaşdırılması;

- investisiya cəlbediciliyinin və investisiya fəaliyyətinin monitorinqi.

İnvestisiya strategiyası, investisiya prosesinin idarə edilməsinin operativ, koordinasiya, nəzarət və tənzimləmə funksiyalarının həyata keçirilməsinə kömək edir. Operativ funksiya kapital axınlarının birbaşa idarə olunması ilə əlaqələndirilir. Buraya həm dövlətin, həm də özəl və korporativ investorların öz investisiya mənbələrinin idarə edilməsi daxildir. Koordinasiya funksiyası sosial-iqtisadi sistemlərin müxtəlif elementləri və səviyyələrinin investisiya mənbələrinə olan ehtiyaclarının strukturlaşdırılması və təhlilinə əsaslanır. Nəzarət funksiyası sosial-iqtisadi sistemdəki investisiya prosesinin göstəricisi rolunu oynayır. Bunlara investisiya prosesinin parametrlərini və xüsusiyyətlərini izləmək və müqayisə etmək, kənarlaşmaları müəyyən etmək və bu kənarlaşmalara səbəb olan səbəbləri müəyyən etmək daxildir. Tənzimləmə funksiyası investisiya prosesinin vəziyyətini və onun gedişat şərtlərini dəyişdirməyə yönəlmiş tədbirlər hazırlamaq və bu tədbirlərin həyata keçirilməyə əsaslanır (Гиринский А. В. 2019: с.99).

Qeyd edək ki, Azərbaycanda regionlarda müəssisələrin modernləşdirilməsinə və yenilərin inşasına qoyulan investisiyaları artırmaq üçün geniş imkanları var. Regionlarda əsas kapitala qoyulan investisiyalar müəssisə və təşkilatların sabit fəaliyyətinin əsasını qoyur ki, bu da müasir şəraitdə xüsusilə vacibdir. Çünki regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, müəssisə və təşkilatların fəaliyyətinin səmərəliliyinin artırılması üçün imkanlar açır.

Aşağıdakı cədvəl vasitəsilə regionlar üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmini nəzərdən keçirək.

**Cədvəl 3: Regionlar üzrə əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Cəmi | 15957,0 | 15772,8 | 17430,3 | 17244,9 | 18539,5 |
| Bakı | 11457,3 | 11759,9 | 11869,0 | 10723,8 | 10893,3 |
| Abşeron | 391,0 | 314,0 | 459,4 | 1223,9 | 2534,1 |
| Gəncə-Qazax | 654,4 | 565,4 | 793,7 | 765,4 | 884,5 |
| Şəki-Zaqatala | 214,8 | 177,1 | 363,7 | 384,1 | 404,2 |
| Lənkəran | 340,8 | 440,0 | 540,8 | 498,3 | 283,6 |
| Quba-Xaçmaz | 269,8 | 353,8 | 401,1 | 455,2 | 672,6 |
| Aran | 1106,5 | 808,5 | 1459,1 | 1472,3 | 1319,7 |
| Qarabağ | 41,9 | 144,6 | 199,4 | 67,6 | 130,7 |
| Şərqi Zəngəzur | - | - | - | - | - |
| Dağlıq Şirvan | 152,0 | 192,5 | 294,4 | 316,2 | 387,4 |
| Naxçıvan | 951,2 | 997,6 | 1005,8 | 1017,1 | 1029,4 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

Cədvəldən göründüyü kimi, ölkə üzrə 2019-cu ildə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 18539,5 milyon manat təşkil etmişdir ki, bunun da 10893,3 milyon manatı və yaxud 58,8%-i Bakı, 2534,1 milyon manatı və yaxud 13,7%-i Abşeron, 1319,7 milyon manatı və yaxud 7,1%-i Aran, 1029,4 milyon manatı və yaxud 5,6%-i Naxçıvan, 2763,3 milyon manatı və yaxud 14,8%-i isə digər iqtisadi rayonların payına düşür. 2019-cu ildə 2018-ci illə müqayisədə regionlar üzrə əsas kapitalın həcmi 1294,6 milyon manat və yaxud 7,5%, 2017-ci illə müqayisədə 1109,2 milyon manat və yaxud 6,4%, 2016-cı illə müqayisədə 2766,7 milyon manat və yaxud 17,5%, 2015-ci illə müqayisədə isə 2582,5 milyon manat və yaxud 16,2% artmışdır.

Aşağıdakı şəkildə Azərbaycanda investisiyaların məhsul istehsalı, xidmət sahələri və yaşayış evlərinin tikintisi üzrə bölgüsü əks olunub.

**Qrafik 3: Azərbaycanın regionları üzrə məhsul istehsalına, xidmət sahələrinə və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar, faizlə**




**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

Qrafikdən göründüyü kimi, ölkəmizdə investisiyaların əsas hissəsi məhsul istehsalı sahəsinə yönəldilib. Son 5 ilin məlumatları bunu əyani şəkildə göstərir. Təkcə 2019-cu ili nəzərdən keçirsək görərik ki, qeyd edilən dövrdə ölkə üzrə 66,1% investisiyalar məhsul istehsalına, 26,8% xidmət sahələrinə, 7,1%-i isə yaşayış evlərinin tikintisinə yönəldilmişdir. Ən çox məhsul istehsalına investisiyalar 2016-cı ildə - 78,3%, xidmət sahələrinə 2015-ci ildə - 31,2%, yaşayış evlərinin tikintisinə isə 2018-ci ildə - 8,1% yönəldilmişdir.

Beləliklə, son 5 ildə əsas kapitala qoyulmuş investisiyaların təhlili göstərdi ki, onların həcminin artmasına baxmayaraq, regionlarda müəssisə və təşkilatların investisiya fəaliyyətini məhdudlaşdıran bir sıra amillər hələ də mövcuddur. Bu amillərə öz maliyyə mənbələrinin kifayət qədər olmamasını, kommersiya kreditlərinin yüksək faiz dərəcələrini, investisiya layihələrinin həyata keçirilməsi üçün kredit mənbələri əldə etmə mexanizminin mürəkkəbliyini, investisiya layihələrinin icrası ilə əlaqəli ümumi investisiya risklərini və s. aid etmək olar.

Beləliklə, investisiya cəlbediciliyinin idarə olunması prinsipinə əsaslanan regionun inkişafı üçün investisiya strategiyası ərazinin sosial-iqtisadi inkişafının əsas məqsəd və vəzifələrinin həyata keçirilməsinə imkan verəcəkdir. İnvestisiya

fəaliyyətinin strateji hədəflərinin formalaşması, ilk növbədə, iqtisadi inkişafın ümumi strategiyasının məqsədlər sistemindən başlamalıdır. Bu hədəflər fərqli ola bilər. Regionun sahə quruluşu investisiya strategiyasının istiqamətlərini seçmək üçün əsasdır.

Ümumilikdə, investisiya strategiyasının həyata keçirilməsi mexanizmi investisiyaların istifadəsinin səmərəliliyini maksimuma çatdırmaq və strategiya ilə əlaqəli investisiya xərclərini və risklərini minimuma endirmək üçün hazırlanr. İnvestisiya strategiyasının həyata keçirilməsi üçün mexanizmin inkişafı investisiya fəaliyyətinin idarə edilməsi üçün yeni təşkilati strukturların formalaşmasından, investisiya mədəniyyətinin yeni prinsiplərinin tətbiq edilməsindən, strateji investisiyalara nəzarət və istifadənin səmərəli sisteminin yaradılmasından ibarətdir. Bütün bunlar son nəticədə regional investisiya siyasətinin hazırlanması və reallaşdırılması səviyyəsindən xeyli asılıdır.

Regionun aqrar sənaye kompleksinin klaster əsasında inkişafının əsas amilləri şəkildə göstərilmişdir.

**Şəkil 1: Regionun aqrar-sənaye kompleksinin klaster əsasında inkişafının amilləri**




**Mənbə:** Завьялов Д.В. 2017: c.2542-2552.

Müəssisələrin, təşkilatların klasterlərə inteqrasiyasının səbəbi kimi aşağıdakıları qeyd edə bilərik:

- kiçik və orta sahibkarlığın inkişafını və sabitliyini artırmaq, klasterin tərkibinə daxil olan daha böyük şirkətlərin zəmanəti ilə kredit mənbələri əldə etmək imkanlarını artırmaq;

- klaster infrastrukturunun bütün obyektlərindən maneəsiz istifadə etmək imkanı əldə etmək;

- klaster çərçivəsində həyata keçirilən investisiya proqramlarında və layihələrində, o cümlədən xərclərin bir hissəsinin kompensasiyası, kreditlər üzrə faizlər kimi güzəştli şərtlərlə iştirak üçün prioritetləri müəyyənləşdirmək;

- investisiya cəlb etmək imkanı və s.

Nəticə etibarı ilə, kənd təsərrüfatı sahəsində klaster idarəçiliyinin inkişafı aşağıdakı mərhələlərə əsaslanmalıdır:

1. Dövlət və regional səviyyələrdə klasterin inkişafında iştirak edən təşkilatlar siyahısının müəyyənləşdirilməsi.

2. İcmal büdcədən maliyyə daxilolmaları, habelə kənd təsərrüfatı məhsulları istehsalçılarının, kənd təsərrüfatı emalı müəssisələrinin və ticarət təşkilatlarının köçürmələri hesabına formalaşmalı olan klaster inkişaf fondunun yaradılması.

3. Xüsusi İnternet saytları sistemi, elmi məlumat və təcrübə yönümlü jurnalların dərc edilməsi ilə iqtisadiyyatın aqrar sektorunun informasiya və məsləhət, reklam və metodiki dəstəyi sisteminin yaradılması.

4. Kənd təsərrüfatı istehsalçılarının texniki cəhətdən yenidən qurulması.

5. Kreditlər üzrə faiz dərəcələrinin tam ödənilməsi, zərərsiz və maliyyə cəhətdən zəif olan kənd təsərrüfatı istehsalçılarının qısamüddətli və uzunmüddətli borclarının silinməsi üçün effektiv sistemin yaradılması.

6. İri və orta kənd təsərrüfatı müəssisələrinin maliyyə vəziyyətinin yaxşılaşdırılması onların maliyyə sabitliyinə nail olunmasına, kənd təsərrüfatı xammal istehsalçılarının iqtisadi və maliyyə risklərini azaltmağa imkan verəcək, eyni zamanda kənd yerlərinin davamlı inkişafına töhfə verəcəkdir.

Aparılan tədqiqatlar göstərir ki, kənd təsərrüfatı məhsulları istehsalçıları böhranı tək başına qaldıra bilmirlər. Bu baxımdan klasterin meydana gəlməsi kənd

təsərrüfatı istehsalçılarının iqtisadi və maliyyə cəhətdən artımına səbəb olacaq, təşkilatın fəaliyyətinin müəyyən aspektlərinin sistematik şəkildə təkmilləşdirilməsini təmin edəcəkdir (Ковалева А.Е. 2017: с.14).

Ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından, aqrar sektorun innovativ inkişafında müəyyənləşdirici amil kənd təsərrüfatının milli iqtisadiyyatın inkişafı üçün prioritet sahə kimi tanınması və müvafiq olaraq bu sahəyə investisiya qoyuluşu üçün dövlət büdcəsi vəsaitlərinin ayrılmasıdır. Beləliklə, aqrar sahəyə klasterli yanaşma kənd təsərrüfatının inkişafının stimullaşdırılması üçün güclü bir vasitədir, nəticədə məşğulluğun, əmək haqqının artırılması, müxtəlif səviyyəli büdcələrə ayırmalar, regional aqrar sənaye müəssisələrinin dayanıqlığı və rəqabət qabiliyyətinin artırılması ola bilər.

Ümumiyyətlə, aqrar sahədə klasterlərin inkişafı sahəsindəki zəruri tədbirlərə aşağıdakılar daxil edilə bilər:

1. Rəqabətdə qanunvericilik, inzibati və digər əngəllərin aradan qaldırılması, işgüzar dairələr və bütün səviyyələrdə hakimiyyət orqanları arasında interaktiv məlumat mübadiləsi sisteminin qurulması.

2. Əməkdaşlıq üçün yerli təşkilatların yaradılması, habelə ortaq rəqabət qabiliyyətinin artırılmasına yönəldilmiş birgə fəaliyyətlərin həyata keçirilməsi yolu ilə ayrı-ayrı biznes subyektlərinin qarşılıqlı əlaqəsi və özünü təşkil.

3. Kiçik müştərilərə dövlət sifarişçilərinin ehtiyaclarının ödənilməsi, dövlət sifarişlərinin yerləşdirilməsi üçün rəqabətli tenderlərdə iştirak məsələlərinə dair məlumatlılığın artırılmasında dəstək.

4. İnvestisiyaların, əlaqəli tədarükçülərin cəlb edilməsi üçün səylərin təşviqi, sənaye kooperasiyasının və subpodratçılığın inkişafı.

5. Beynəlxalq standartlara uyğun idarəetmə sistemlərinin tətbiqi və sertifikatlaşdırılması, məhsulların müstəqil sınaq və sertifikatlaşdırılması sahəsində kiçik müəssisələrə yardım.

6. İxtisasartırma proqramlarına başlamaq, yerli universitetləri, elmi-tədqiqat institutlarını, layihə bürosunu, elm parkları klasterlərin yaradılmasında iştirak

etməsini təmin etmək, elmi-tədqiqat və təcrübi-kosntruktor işlərini innovativ tədqiqat və istehsal müəssisələrinin maraqlarına uyğun təşkil etmək.

7. Gənclərin yeniliyə cəlb edilməsi, gənclər arasında sahibkarlığı təşviq edən məlumat və maarifləndirici, təşkilati tədbirlərin həyata keçirilməsi, gənc sahibkarların bazara girməsini asanlaşdırmaq.

8. Marketinq siyasətinin aparılması və xarici bazarlarda klasterlərin təqdim edilməsi və s.

Qeyd edilən bu istiqamətlər aqrar sahədə klasterlərin inkişafına təkan verməklə, onların milli iqtisadiyyatda rolunun artmasına gətirib çıxaracaqdır.

### 2.3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mədənçıxarma sənayesinə investisiya qoyuluşları

İşğal dövründə ermənilər Qarabağa məxsus olan təbii resurslardan istismar etməklə varlanırdılar. Bu qanunsuz faəliyyətləri dəfələrlə beynəlxalq arenada qaldırılasada, onlara qarşı heç bir tədbir görülməmişdir. Baxmayaraq ki, burada faəliyyət göstərən şirkətlərin yerləşdiyi ölkələrin rəsmilərinə müraciətlər ünvanlanıb, onlar bu müraciətlərə ölkədə olan iqtisadi fəaliyyətə qarışa bilməyəcəklərini qeyd edərək cavab veriblər. İsrailin "Kohelet Policy Forum" (KPF) tərəfindən tədqiqatı aparılmış məlumatlara əsasən deyə bilərik ki, burada fəaliyyət göstərən şirkətlər separatçıların bu fəaliyyətlərini hər zaman dəstəkləyiblər və işğalçılara yardım edib, tikinti və digər sektorlarda dəstək verib (https://story.karabakh.center/az/ermeni-ishgali-dovrunde-qarabagda-qeyri-qanuni-iqtisadi-fealiyyet).

Ermənistanın özünün iqtisadiyyatı güclü olmadığı və təbii resursların qıtlığı olduğuna görə əsas gəlir yeri Qarabağda yerləşən faydalı qazıntıların çıxarıldığı mədənlər idi, onlar Azərbaycanın təbii resurslarını istismar edir və qeyri qanuni yolla öz sərvətlərini artırırdılar. Zəngin təbii ehtiyatlara malik olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında qızıl və misdən əlavə dağ-kimyəvi, kükürd kolçedanı, soda xammalı, zinət daşları, inşaat daşları, üzlük daşları, sement xammalı mineral boyalar və digər inşaata yarayan təbii resurslar çıxarılaraq xaricə ixrac

edilmişdir (https://azertag.az/xeber/Qarabagin_butun_faydali_qazinti_yataqlari_yeniden_islenmeli_ve_hemin_yataqlarda_kompleks_tedqiqatlar_aparilmalidir-1671243).

Təbii resurslarla zəngin olan Qarabağın ən böyük yataqlarından Dəmirli, Canyataq, Gülyataq, Söyüdlü, Ağduzdağ, Tutxum, Vejnəli, Mehmana, Şorbulaq, Sarıbulaq, Ağyataq, Levçay, Qamışlı, Ağqaya, Çilgəzçay və Narzanlı qeyd etmək olar. Qarabağın işğal olunmasından əvvəl ermənilər qeyd olunan ərazilərdə kəşfiyyat işləri aparıb mövcud resursların yerlərini tapmağa çalışıblar, lakin davam edə bilməyiblər, araşdırılan regionun kommersiya faəliyyətinə yararlı olmadığı qəanətinə gələn kəşfiyyatçılar burada qazıntı işlərini dayandırıblar, bunu Bako Saakyanın müşaviri Ermənistanın ən böyük dağ-mədən sənayesi ilə məşğul olan şirkət "Vallex Group"-un Qriqori Qabrielyants özü öz müsahibəsində 1990-cı ilində Qarabağın faydalı qazıntılarının tapılması üçün kəşfiyyat işlərini apardıqlarını qeyd etmişdir, işğaldan sonra "Vallex Group" tərəfindən Vejnəli yatağı istismar edilməyə başlamışdır (https://story.karabakh.center/az/ermeni-ishgali-dovrunde-qarabagda-qeyri-qanuni-iqtisadi-fealiyyet).

**Şəkil 2: “Vallex Group” tərəfindən istismar edilən Zəngilan rayonunda yerləşən Vejnəli mədəninin kosmosdan görüntüsü.**




**Mənbə:** https://mfa.gov.az/files/shares/Azercosmos.pdf

“Vallex Group”-un törəmə şirkətin olan “Base Metal” təbii sərvətimizi istifadə etməsi bir yana resursları tamamilə qeyri-qanuni yolla istismar etmiş ətraf mühitə zərər vurmuşdur, bundan sonra dayanmayıb Ağdərə şəhəri yaxınlığında yerləşən Kaşen mis-molibden mədənini istismar ediblər (https://story.karabakh.center/az/ermeni-ishgali-dovrunde-qarabagda-qeyri-qanuni-iqtisadi-fealiyyet).

Ermənilərin bu əməllərinə görə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən araşdırma başladılıb və 3 nəfər erməni iş adamı, “Vallex Group”-un baş investoru Vartan Sirmakes və rəhbəri Valeriy Mejlumyan, “Base Metals” icraçı direktoru Artur Mkrtumyan beynəlxalq axtarışa verilib (https://genprosecutor.gov.az/az/post/3137).

Ermənilərin əlavə olaraq istismar etdiyi Qarabağda yerləşən ən böyük mədənlərdən biri Kəlbəcərdə yerləşən Söyüdlüdü yatağıdır. 2007-ci ildən etibarən Ermənistsanın invenstorlarından olan “GeoProMining” mədən şirkətlər qrupu tərəfindən istismar edilirdi. Maraqlı tərəfi budur ki, Kəlbəcərin azad edilməsinə baxmayaraq erməni tərəfi bu yatağı Azərbaycan tərəfinə vermək istəmirdi, “GeoProMining” şirkəti bu yatağı itirməmək üçün buraya silahlı dəstələr cəlb edərək, buranın geri alınmasının qarşısını almağa çalışırdı, qəhrəman ordumuz öz şücaəti ilə buraya cəlb edilən muzdluları geri qova bilmiş və yatağı əlində saxlaya bilmişdi.

“Vallex Group” investoru Vartan Sirmakes həmçinin İsveçrə saat brendi olan “Franck Muller Group”-un baş direktorudur, şirkətin əsası 1992-ci ildə Franck Muller və Vartan Sirmakes tərəfindən qoyulmuşdur, işğaldan sonra olan dövrdə Qarabağda oğurluq fəaliyyəti ilə məşğul olublar (https://story.karabakh.center/az/ermeni-ishgali-dovrunde-qarabagda-qeyri-qanuni-iqtisadi-fealiyyet; https://www.franckmuller.com/story).

BMT-nin hər bir məsələdə narahat olması lakin Azərbaycanla Ermənistan münasibətlərinə və ermənilərin etdiklərinə göz yumması təəccübləndirici haldır. Ermənilərin burada mədənçıxarma fəaliyyəti ilə məşğul olmaları, beynəlxalq qaydalara zidd olduğu görünür, Sirmakesin “Franck Muller Group”-un yeganə nümayəndəliyini ermənistanda 1 milyon 300 min dollar sərmayə yatıraraq açıb və ölkəyə milyonlar qazandırıb (https://1news.az/az/news/20190107041408131-Isvechrenin-Franck-Muller-brend-saatlarinin-Azerbaycan-qizilini-Qarabagdan-ogurlamasi-haqda).

“Franck Mullerin Group”-un əsas invenstorlarından olan Vartan Sirmakes Kəlbəcərdə yerləşən söyüdlü yatağı kifayət deyilmiş kimi Zəngilan rayonunun əsas qızıl yataqlarından olan Vejnəli mədənində qazıntı işləri aparıb və əldə olunan qızılları beynəlxalq maliyyə bazarlarında satışa çıxarmışdır.

Məlum olduğu kimi qaranlıq işlərlə məşğul olan şəxslər əsasən əldə etdikləri çirkli pulların yuyulması səbəbi ilə öz ölkələrində olmayan digər banklara yatırırlar, əsasən belə banklar ofşor – “offshore” banklar adlanır

(https://www.investopedia.com/terms/o/offshore.asp#:~:text=Offshore%20banking%20describes%20a%20relationship,a%20bank%20account%20at%20home.).

Ermənilər faydalı qazıntılardan əldə etdikləri pulları İsveçrədə yerləşən banklarda saxlayır (https://story.karabakh.center/az/ermeni-ishgali-dovrunde-qarabagda-qeyri-qanuni-iqtisadi-fealiyyet).

ABŞ-ın dünya üzrə tikinti avadanlıqlarının istehsalı üzrə öndə olan Caterpillar və Danimarkanın "FLSmidth" şirkətləri Azərbaycanın işğal olunmuş ərazilərində qazıntı işlərinin aparılması üçün qondarma "Dağlıq Qarabağ Respublikası"-na texniki avadanlıqlar göndəriblər. Caterpillar əsasən yük və tikinti maşınlarının istehsalı ilə, "FLSmitdh" isə mədənçıxarma sənayesində istifadə olunacaq avadanlıaları istehsalı ilə məşğul olan şirkətlərdir. Adları çəkilən şirkətlər erməni işğalçılarına texniki dəstəyin göstərilməsi ilə məşğul olmaqla yanaşı həmçinin onların öz qurğularını necə istifadə edəcəklərini onlara öyrədiblər (https://www.caterpillar.com/en/company.html#:~:text=WHO%20WE%20ARE,in%20the%20industries%20we%20serve.; https://www.flsmidth.com/en-gb/company/about-us).

Qarabağın azad edilməsi, Söyüdlü qızıl yatağını istismar edən "GeoProMining" şirkətinin işlərini bir xeyli çətinləşdirmişdir. Regionda mövcud olan təbii resurslarla zəngin bölgələrimizin onların istismarından xilas edilməsi "GeoProMining" şirkətinin gəlirlərini azaldıb. Onlar işğaldan azad olunan torpaqların Azərbaycan tərəfindən ələ alınmasının qarşısını almaq üçün Söyüdlü yatağına gedən yola darvaza çəkmiş, hələ bu azmış kimi mədənin düşdüyü ərazidən Azərbaycan istiqamətinə bir neçə yüz metr irəli sərhəd xəttini quraraq yatağın olduğu hissənin onlara düşməsinə çalışıblar Söyüdlü yatağında kəşfiyyat işlərinə başlamaq üçün müvafiq qurumlara müraciət edilərək regionun potensialı öyrənilməyə çalışılır (https://story.karabakh.center/az/ermeni-ishgali-dovrunde-qarabagda-qeyri-qanuni-iqtisadi-fealiyyet).

Ordumuzun qalibiyyəti nəticəsində Söyüdlü yatağını itirən Ermənilərin itirdiyi bir digər mədən Kaşen mis-molibden mədənidir. Kaşen yatağına nəzrəti "Vallex Group" idarəsini isə "Base Metals" həyata keçirirdi. Bununlada ermənilər daha da alçaldıcı vəziyyətə düşdülər, Qarabağın "qanını içən" erməni vandalları əsas gəlir

yerlərini itirmələri onların iflic vəziyyətə düşmələrinə və kənar respublikalardan yardım istəmələrinə gətirib çıxarmışdı. Hətta prezident İlham Əliyev müsahibəsində bildirmişdir ki, bizim əlimizdə siyahılar var məlumat üçün qeyd edirik ki, hansı şirkətlər orada talançılıqla məşğul olublar bilirik və bu şirkətlər təzminat ödəməsələr bu şirkətləri beynəlxalq məhkəməyə verəcəyik.

# III FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA MÖVCUD OLAN RESURSLARIN SƏMƏRƏLİ İSTİFADƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərin beynəlxalq-hüquqi əsasları

Ermənistanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğalı nəticəsində, Azərbaycanın göz bəbəyi olan, təbii resursları və mədəni sərvətləri ilə dünyada fərqlənən Qarabağımızda mövcud olan resurslarımızı talan edilməsinə beynəlxalq konvensiyalara və hüquqi əsaslara əsasən baxaq.

Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyasının İkinci Protokolunun birinci bəndində deyilir ki, mədəni sərvətlər əhali üçün əhəmiyyət kəsb edən, dini və dünyəvi arxeloji tapıntılar, tarixi abidələr, arxeoloji yerlər, kitablar, əsərlər və s. mədəni irsimizi əhatə edən sərvətlər aiddir. Həmin protololun ikinci bəndində bu sərvətlərin mühafizəsi qeyd olunmuşdur, protokolun üçüncü bəndində milliyətindən, dinindən və irqindən asılı olmayaraq hər bir şəxs, dini, mədəni, elm və təhsilə aid olan mədəni irslərin dağıdılmasına, tanınmaz hala salınmasına və ya özününküləşdirilməsinə yol verilmir. Lakin erməni terrorçuları orada yerləşən mədəniyyət abidələrini qorumaq əvəzinə saxta tarixlərini oraya yeritməyə çalışmışdır. Ekspertlərin məqalələrindən və televiziya kanallarından görmək olur ki, erməni barbarları tarixi abidələrimizin üzərinə erməni dilində olan yazıları qazıyaraq və ya digər bir deyişlə yazıları yeni yazı daşları üzərində yapışdıraraq mənimsəmişdir. Həmin protokolun beşinci bəndində işğal olunmuş torpaqlarda hərbi əməliyyatlar nəticəsində mədəni və irsi

sərvətlərə dəymiş zərəri ödəmək üçün xüsusi qurumlar cəlb edilməsi mümkün deyilsə, burada yerləşən işğalçı ölkənin qurumlar, mədəni sərvətləri restavrasiya etməli və qorumalılıdır, lakin işğaldan azad olunan torpaqların erməni vandallar tərəfindən bərpa edilərək əvvəlki görünüşlərinə qaytarmaq yerinə onları dağıdıb və tanınmaz hala salıblar. Bu protokolun yeddinci bəndində, əraziyə nəzarət edən tərəfin öz ordusuna mədəni sərvətlərin qorunmasına və onlara qayğı ilə yanaşmasını aşılamalıdır, əgər imkan varsa sülh şəraitində işğalçı tərəf qarşı tərəflə razılaşaraq abidələri birgə bərpa etməlidir. Lakin erməni silahlıları bunu etmək əvəzinə ilk işğal günlərində mövcud resursları talan etmiş və ölkəmizin dəyərli yerlərindən olan Qarabağımızın tarixi və mədəni abidələrini darmadağın ediblər. Burada mövcud olan insanların dini mənəviyyətinin əsas elementlərindən olan ibadətgahları donuzların saxlanıldığı yerə çevirdilər. Protokolun iyirmi dördüncü bəndində qeyd olunur ki, tərəflər mədəni irsin qorunması üçün razılığa gələ bilər, lakin ermənilərin vəhşiliklərinə görə belə qrupların buraya getməsinə şərait yaratmayıblar. Protokolun iyirmi səkkizinci bəndində işğalçı tərəfin sadalanan hallara riayət etməməsinə görə sanksiyaların tətbiq edilməsinə icazə verməsinə baxmayaraq, beynəlxalq qurumlar erməni vandalların bu hərəkətlərinə səssiz qalmışdır (https://unesco.preslib.az/az/page/EhMCymTGWI).

Qarabağ regionunun qızıl ilə zəngin olan Söyüdlü yatağı işğaldan sonra erməni vandallara qənimət yeri olub. Erməniləri buraya zərər vurmaları bir yana əlimizdə olan qızıl yataqlarını da istismar ediblər, təbii resurslarımızı mənimsəyərək ətraf mühitə zərər vurublar.

**Şəkil 3: Söyüdlü qızıl yatağının kosmosdan görüntüsü.**




**Mənbə:** https://mfa.gov.az/files/shares/Azercosmos.pdf

Şəkil 3-də Azərkosmosun təqdim etdiyi Kəlbəcər rayonu ərazisində yerləşən Söyüdlü qızıl yatağının kosmosdan çəkilmiş görüntüsündə rəqəmlə göstərilən yerlərdən ermənilərin qızıl yatağında qazıntı işlərinin aparıldığı yerləri 2006-cı ildən 2017-ci ilə qədər ətrafda olan yaşıllıqları və mövcud torpaq resursunu məhv edərək qazıntı aparılan ərazinin sahəsini necə artırdıqları görünür.

**Şəkil 4: Dəmirli kənd mis-molibden mədəninin kosmosdan görüntüsü.**




**Mənbə:** https://mfa.gov.az/files/shares/Azercosmos.pdf

Şəkil 4-də görünən Tərtər rayonunda yerləşən Dəmirli mis-molibden yatağıdır, regionda mövcud olan resursların talan edilməsi və təbii resurs mənbələri aşkarlanması hədəfi ilə müxtəlif faəliyyətlərlə məşğul olublar. 2005-ci ildə təqdim

edilən görüntü ilə 2017-ci ildə olan görüntünü müqayisə etsək ermənilərin mövcud təbii resurslarımızın mənimsənilməsi kifayət deyilmiş kimi əlavə mənbələrin axtarışını da həyata keçirərək təbiətə zərər vurublar.

Müharibə qanun və qaydaları barədə 1907-ci il Haaqa Konvensiyasına görə əgər bir dövlət başqa bir dövlətin ərazisinə işğal məqsədi ilə girərsə və mülki obyektlərə zərər vurarsa, bu davranış qaydalara görə hərbi cinayət hesab olunur (https://ihl-databases.icrc.org/ihl/INTRO/195).

Ermənilər bir başa bu konvensiyanın tələblərini pozur, kosmosdan əldə edilən görüntülər və qazet məqalələri ermənilərin burada dinc dayanmadıqları və sivil əhalinin yaşadıqları yerləri talan etmələri, həmçinin mövcud resursların mənimsəmələrini sübut edir.

Talançılıq fəaliyyəti məşğul olan ermənilərin bu əməlləri və regionda mövcud vəziyyət, həmçinin vandalların əkinə yararlı torpaqları yandırması 2006-cı ildə BMT Baş məclisində müzakirəyə çıxarılıb, nəticədə regiona ATƏT-in dəyərləndirmə qrupu buraya göndərilib və qiymətləndirmə işləri aparılıb nəticədə regionda fəaliyyət göstərən şirkətlərin yerləşdiyi ölkələrin idarəçilərinə məktubların ünvanlanıb, buna baxmayaraq heç bir xarici şirkət burada olan faəliyyətini dayandırmayıb və erməni terrorçuları ilə birlikdə təbii resursların ölkədən qanunsuz çıxarması üçün fəaliyyətlərini davam etdiriblər. Ermənilər uzun müddətdir ki, sülh masasına oturmağa çalışan rəsmilərimizin bu təkliflərini geri çevirirlər, nəticədə beynəlxalq arenada qaydaları kobud şəkildə pozurlar.

Ətraf mühitin problemlərinə dair 1972-ci il Stokholm Bəyannaməsinə və Ətraf mühit və inkişafa dair 1992-ci il Rio-de Janeyro Bəyannamələrinə əsasən təbiətin qorunması bütün bəşəriyyətin borcudur. İndiki nəsil anlamalıdır ki, onların istifadə etdiyi resurslar gələcək nəsillər üçün saxlanmalıdır. Lakin ermənilər qeyd olunan bəyannamələrə əməl etməyərək Azərbaycanın torpaqlarına zərər vurublar. 1968-ci il Afrika Konvensiyasının preambulasında təbii resursların həyati əhəmiyyət daşıdığını qeyd ediblər, lakin ermənistan hakimiyyəti bu yazılan qanunlara

əhəmiyyət verməyərək, təbii resursların talan edilməsinə davam ediblər (https://www.pa.edu.az/library/3/21/152_movzu_19._beynelxalq_ekologiya_huququ.pdf).

BMT səviyyəsində ətraf mühitin mühafizəsi həyata keçirilir və bərpası qanunlara əsasən siyasi və maddi yollarla həyata keçirilir. Siyasi məsuliyyət mövcud arenada qanunlara əsaslanan cəza tədbirləri ilə həyata keçirilə bilər bunlara sanksiyalar və məcbur etmə tədbirləri aid edilə bilər, lakin siyasi müstəvidə, Ermənistanın bu fəaliyyətinə istiqamətlənən heç bir sanksiya görə bilmirik. Maddi məsuliyyət isə işğalçı dövlətin vurduğu maddi zərəri pul ilə ödəməsidir, bunu işğalçı ermənistan 2 yolla ödəyə bilər bunlar (https://www.pa.edu.az/library/3/21/152_movzu_19._beynelxalq_ekologiya_huququ.pdf):

- Reparsiya
- Restitusiya
- Substitusiya

Reparsiya təbiətə vurulan zərərin pul ilə ödənilməsi, restitusiya mənimsənilmiş əmlakın natura formasına qaytarılması və substitusiya məhv edilmiş obyektlərin əvəzlənməsidir.

Azərbaycanın Hakimiyyəti siyasi arenada Ermənistanın ölkəmizə vurduğu zərərin ödənilməsi qeyd olunan qanuna əsasən tələb edə bilər.

## 3.2. Mövcud olan resursların səmərəli istifadəsinin təkmiləşdirilməsi istiqamətləri

İşğaldan azad edilmiş torpaqlarımızın bərpası və inkişafı azərbaycan dövləti qarşısında dayanan ən mühüm strateji vəzifədir.

Bildiyimiz kimi başlıca zərər dəyən Azərbaycanın əsas elementlərindən biri kənd təsərrüfatıdır, təxminən 1 milyon hektar torpaq sahəsini suvarmadıqlarına görə məhv olmuş və ya öz potensiyalını itirmişdir, ümumilikdə 820 milyard dollar Azərbaycana zərər vurulmuşdur (http://iqtisadiyyat.com/az/pages/5/news/1267).

Heç şübhəsiz ki, 2020-ci ilin sentyabrında başlamış Vətən müharibəsi dövründə ölkəmizə vurulmuş ziyanın və tələfatların həcmini, həmçinin Qarabağ bölgəsində

vaxtilə işləyən müəssisələrin işğal nəticəsində dağıdılması səbəbindən əldə edilməsi mümkün olmayan, itirilmiş gəlirləri və mənfəətləri nəzərə alsaq, bu rəqəm xeyli yüksək olacaqdır (http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf).

İşğaldan əvvəl bu ərazilərdə ən güclü sənaye sahələri yerli əhalinin sağlamlığı üçün mühüm əhəmiyyət kəsb edirdi. İstisu və Turşsu mineral su qablaşdırma zavodları, Dağlıq Qarabağ və Ağdam mərmər və yonma daş zavodları, şərab zavodları, tekstil və ayaqqabı fabrikləri, İpək Kombinatı və s. bu ərazilərdə fəaliyyət göstərirdi.

Yem istehsalı, tütünçülük, üzümçülük, pambıqçılıq, üzümçülük və bağçılıq, təsərrüfat, heyvandarlıq əsas sahələrdən hesab olunurdu, İşğal nəticəsində rayonda 311 təsərrüfat obyekti, o cümlədən Ağdam at sovxozu, 319 kolxoz və 92 sovxoz ləğv edilib. Hazırda azad edilmiş sahələr həm əkin, həm də məhsul yetişdirmək üçün böyük potensiala malikdir. İqtisadi potensialın və imkanlarının artırılması, qiymətli regional ehtiyatların mənimsənilməsindən və tullantı bölməsinin qiymətli məhsullarının inkişaf etdirilməsindən gedir.

Bu iqtisadi potensialın və imkanların reallaşdırılması xüsusilə bölgə əhalisinin həmin məhsullara tələbatının ödənilməsinə, burada aqrar bölmənin məhsullarının emalı sahələrinin inkişafına, ən əsası isə ölkəmizdə ərzaq təhlükəsizliyinin yüksəlməsinə əlverişlı şərait yaradacaqdır. Xüsusilə heyvandarlıq məhsulları ilə özünü təminetmə yaxşılaşacaqdır. Belə ki, hazırda ölkəmizin ət və ət məhsulları ilə özünü təminetmə səviyyəsi 82,5 %, süd və süd məhsulları ilə 86,2 % təşkil edir. Proqnozlara görə, azad edilmiş ərazilərdə iqtisadi fəaliyyət bərpa edildikdən sonra özümüzü bu məhsullarla, həmçinin dənli bitkilərlə daha yüksək səviyyədə təmin edə biləcəyik (http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf).

İşğaldan azad olmuş ərazilərimizin sənaye potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi dağ-mədən, metallurgiya, tikinti materialları, müxtəıif istiqmətli emal sənayesi sahələrinin inkişafına imkan yaradacaqdır. İlkin hesablamalara görə, önümüzdəki illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əsas sahələrdə ümumi istehsal həcmi 2 milyard manatdan çox arta bilər. Beləliklə, işğaldan azad

edilmiş torpaqlarımızın potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi ölkə ÜDM-nin dəyərinin artmasına, qeyri-neft sektorunun inkişafı ilə bağlı proqnozları yaxşılaşdırmaq istiqamətində dəqiqləşdirməyə, ölkənin ərazi əmək bölgüsündə bölgənin yerini və payını yüksəltməyə, bölgədə istehsal olunan malların və xidmətlərin rəqabət qabiliyyətini təmin etməyə böyük imkanlar yaradacaqdır (http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf).

İnkişaf etmiş ölkələrin iqtisadiyyatı innovasiyalara əsaslanır. İnnovasiyalar insan fəaliyyətinin müxtəlif sahələrində istifadə olunur. Cəmiyyətin modernləşməsinin əsası kimi innovasiya siyasəti regionların sosial-iqtisadi siyasətinin bir istiqaməti kimi çıxış edir. İnnovasiyanın əsas xüsusiyyəti istehsalda tətbiq olunmaqla yanaşı, mütləq istehlakçıların ehtiyaclarını ödəməsidir. İnnovasiyaların artan rolu, birincisi, bazar münasibətlərinin təbiəti ilə, ikincisi, davamlı artım trayektoriyasına daxil olmaq üçün ölkə iqtisadiyyatında dərin keyfiyyət dəyişikliklərinə ehtiyac ilə şərtlənir (http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf).

Müasir dövrdə təkcə ölkənin deyil, həm də onun ayrı-ayrı regionlarının innovasiya potensialının qiymətləndirilməsi və istifadəsi problemi ön plana çıxır. Regionun innovativ potensialının qiymətləndirilməsi regional innovasiya siyasətinin əsaslandırılması və regional innovasiya mənbələrinin səmərəli istifadəsi nəzərə alınmaqla regional inkişaf proqramlarının hazırlanması üçün vacibdir. Regionun inkişafındakı amillərdən biri məhz regional innovasiya potensialının formalaşması və səmərəli istifadəsidir.

Regionun innovativ potensialından istifadənin səmərəliliyi bu potensiala daxil olan resursların istifadəsinin səmərəliliyindən asılıdır. Regionun innovasiya potensialı istehsal, əmək, maliyyə, təşkilati, idarəetmə və intellektual potensiallar kimi nəzərdən keçirə bilər. Eyni zamanda bu potensiallar tam innovativ potensial deyil, yalnız innovasiya fəaliyyəti üçün şərait yaradan vasitədir.

Regionun innovasiya potensialı həm formalaşma mərhələsində, həm də istifadə mərhələsində nəzərə alınmalıdır. Bu yanaşma innovasiya potensialının formalaşması və istifadəsi prosesində əldə edilən əsas nəticələri müəyyənləşdirməyə

imkan verir. Nəticədə, innovativ potensialın istifadəsi müxtəlif növ yeni texnologiyalar, yeni mal və xidmətlər növlərinin istehsalı ilə nəticələnəcəkdir.

Regionda orta və uzunmüddətli perspektivdə müəyyən vəzifələrə uyğun olaraq regional innovasiya sisteminin səmərəli fəaliyyəti aşağıdakı istiqamətlərin icrası ilə təmin edilə bilər (https://www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf):

1) innovasiya infrastrukturunun monitorinqi, elmi və innovativ fəaliyyət üçün kadr hazırlığı, innovativ infrastruktur obyektlərinin dəstəklənməsi, elmin inkişafının prioritet sahələrin idarə olunması üçün infrastruktur mərkəzlərinin yaradılması;

2) regionda ixracyönümlü layihələr daxil olmaqla, innovativ layihələrin hazırlanması və reallaşdırılması üçün ixtisaslaşmış peşəkar təşkilatların yaradılması;

3) innovativ inkişafın konkret məqsədlərinə nail olmaq üçün müəssisələri sənaye, dövlət orqanları və elmi-tədris kompleksi üzrə birləşdirən əlaqələndirici şuraların və xüsusi institutların yaradılması;

4) regiondakı müəssisələri texnoloji cəhətdən yenidən təchiz edilməsini sürətləndirməyə qadir olan milli və beynəlxalq şirkətlərin texnopolis, texnopark və sənaye parklarının sakinləri kimi bölgəyə cəlb edilməsi;

5) regiondakı vençur fondları və özəl kapital fondlarının fəaliyyətini asanlaşdırmaqla müəssisə və təşkilatların innovasiya fəaliyyətlərinin maliyyələşdirmə mənbələrinə çıxışının təmin edilməsi.

Regionun innovasiya potensialının inkişafı üçün əsas şərt innovativ mühitin yaradılmasıdır. Regionların innovasiya mühitinin səmərəli işləməsi üçün müəyyən şərtlər yaratmaq lazımdır. Xüsusilə onun inkişafına mane olan amillərin təsirini minimuma endirmək lazımdır.

**Cədvəl 4: Regionun innovasiya mühitinə təsir göstərən amillər**

| **Yenilikçi bir mühitin inkişafına kömək edən amillər** | **İnnovasiya mühitinin inkişafını məhdudlaşdıran amillər** |
|---|---|
| Yüksək innovativ işgüzar fəaliyyət | Regionun aşağı investisiya cəlbediciliyi |
| Regionun elmi fəaliyyəti | Elmi inkişaflara tələbin olmaması |
| Yüksək innovativ potensial | İnnovativ potensialın reallaşdırılması üçün investisiya çatışmazlığı |
| İnnovasiyaya dövlət dəstəyi | İnnovasiya fəaliyyətin stimullaşdırılması üçün effektiv bir mexanizmin olmaması, zəif maliyyələşdirmə səbəbindən innovativ inkişaf |

| | |
|---|---|
| | proqramlarının həyata keçirilməsində çətinliklər |
| İnnovasiyaların dövlət tərəfindən maliyyələşdirilməsi | İnnovasiyanın yüksək qiyməti |
| İnnovasiyanı dəstəkləyən infrastrukturların mövcudluğu | Hökümət, iş, elm, təhsil, maliyyə təşkilatları, cəmiyyətin fəaliyyətlərinin uyğunsuzluğu |
| İnnovasiya siyasətinin həyata keçirilməsi | Regionun sahibkarlıq subyektlərinin innovativ fəaliyyətlərin həyata keçirilməsinə marağının olmaması |
| İnnovasiyanın bütün mərhələlərində inkişaf etmiş informasiya dəstəyi sisteminin olması | İnnovativ fəaliyyət iştirakçılarının inkişaf etməmiş informasiya əlaqələri |
| Regionda innovasiya fəaliyyətlərinin nəticələrinin statistik uçotu və monitorinqi sisteminin inkişafı | Statistik məlumatların və yeniliyin effektivliyini qiymətləndirmək meyarlarının uyğunsuzluğu |
| Elmi işlənmələrin kommersiyalaşdırılması üçün əlverişli şərtlərin mövcudluğu | Tədqiqat və inkişaf üçün maliyyə vasitələrinin və stimulların olmaması |
| İnnovasiyaya tələb | Regionun aşağı innovasiya həssaslığı |
| İnnovativ məhsulların yüksək rəqabət qabiliyyəti | İnnovasiya ilə əlaqəli yüksək risklər |

**Mənbə:** https://www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf

Regionlarda innovativ fəaliyyətin maliyyələşdirmə mənbələri müəssisələrin, maliyyə və sənaye qruplarının, kiçik innovativ müəssisələrin, investisiya və innovasiya fondlarının, yerli idarəetmə orqanlarının, ayrı-ayr fərdlərin və s. vəsaitləri ola bilər. Bütün bu qurumlar regional iqtisadi prosesdə iştirak edir və bu və ya digər şəkildə regionun innovativ fəaliyyətinin inkişafına kömək edir.

İnteqrasiya olunmuş strukturların yaradılması regionda innovasiya mühitinin formalaşması üçün təsirli bir vasitədir ki, bu da sənayenin modernləşdirilməsi üçün zəruri şərtdir.

İnnovasiyadan kifayət qədər yüksək intellektual və sənaye potensialına sahib regionlarda iqtisadi artımın strateji amili kimi istifadə etmək xüsusilə vacibdir. Onların inkişafı yalnız qabaqcıl texnologiyaların istifadəsi ilə deyil, həm də onların yaradılması və tətbiqi imkanları ilə əlaqələndirilir.

Regionun innovasiya potensialının inkişafı üçün əsas prioritet istiqamətləri aşağıdakı şəkil vasitəsilə əks etdirə bilərik.

**Şəkil 5: Regionun innovasiya potensialının inkişafının prioritet istiqamətləri**




**Mənbə:** https://www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf

Regionun elmi-tədqiqat potensialının və yüksək texnoloji sahələrin olması iqtisadiyyatın ənənəvi sahələrinin modernləşdirilməsinə və yüksək texnoloji məhsullar üçün dünya bazarlarında mövqelərini genişləndirərək yüksək texnoloji sənaye kompleksinin formalaşmasına şərait yaradır. Bu istiqamət çərçivəsində hər bir regionda aşağıdakılara nail olmaq lazımdır:

■ müəssisələrdə perspektivli texnologiyaların tətbiqinin sürətləndirilməsi və innovasiya iqtisadiyyatının sahələri əsasında yüksək texnoloji sahələrin yaradılması, o cümlədən kiçik və orta innovativ biznesin inkişafı üçün əlverişli şərait yaratmaq;

■ elmi əsasları və innovativ inkişafları, habelə beynəlxalq standartlara uyğun sertifikatlaşdırmanı qiymətləndirən və izləyən texnoloji audit mərkəzləri sistemi yaratmaq;

■ müəssisə və təşkilatların yüksək texnologiyalı klasterlərinin formalaşmasına dəstək vermək;

■ regional və regionlararası proqramlar vasitəsilə müəssisələrdə yüksək texnoloji məhsulların istehsalını stimullaşdırmaq;

■ bilik və texnologiyanın kommersiyalaşdırılması sahəsində çalışan kiçik və orta sahibkarlıq daxil olmaqla, innovativ sahibkarlığın inkişafına yönəlmiş elmi-texniki baza yaratmaq;

■ inteqrasiya proseslərini inkişaf etdirmək və kiçik innovasiya müəssisələrinin şəbəkə təşkilatları və birliklərini yaratmaq, xüsusilə gənclər arasında innovativ cəmiyyət yaratmaq;

■ orta və kiçik müəssisələrin yaradılmasında inzibati maneələri azaltmaq, müəssisələrin torpaq ehtiyatlarına və investisiya sahələrinə, enerji infrastrukturuna və digər mənbələrə girişini sadələşdirmək;

■ investisiya və biznes risklərini azaltmaq.

Bütün bunlar regionun innovasiya potensialının inkişafında əhəmiyyətli rol oynaya bilər.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

İşğal altında ərazilərimiz ölkə ərazisində resurs potensialı seçilmişdir, lakin uzun müddətdir ki, Azərbaycan xalqı bu potensial resurslardan istifadə edə bilməmişdir bununla belə ölkəyə yatırımlar çox olmuşdur. 1995-2020-ci illər ərzində ölkəmizə 280 milyarddan artıq investisiya qoyulmuşdur ki, bunun yarısı xarici investisiyaların payına düşür (Zeynalov Z.H., 2022).

Xarici investisiyalar Qarabağın dirçəlməsinə və Azərbaycan iqtisadiyyatının yenidən inkişafına gətirib çıxaracaqdır. Ölkəyə yatırımların artması potensial resursların üzə çıxmasına gətirib çıxaracaqdır. Dünyada mövcud olan müxtəlif şirkətlərin bu ərazilərə cəlb edilməsi, kiçik və orta sahibkarlıq obyektlərinin burada yaradılması regionun iqtisadiyyat və sərmaye baxımından daha cəlb edici hala gətirəcəkdir. Ölkəyə investorların cəlb edilməsi üçün əsas istiqamətlər seçilməlidir, bunun üçün rayonda mövcud şərait diqqətə alınmalı və əldə olunan məlumatlar cəmiyyətə açıqlanmalıdır.

Müxtəlif bizneslərin və yeni investisiyaların cəlb edilməsi üçün dövlət tərəfindən bir sıra strategiyalar müəyyənləşdirilməli, bu istiqamətdə xüsusi planlar hazırlanmalı, istər yerli investorlar, istərsə də xarici investorların Qarabağ regionuna yatıracağı investisiyaların dövlət tərəfindən qorunması və qarantı müəyyənləşdirilməlidir. Buraya aşağıdakıları aid edə bilərik:

• İlk olaraq Qarabağ regionunda baş verə biləcək hərbi təhlükələrin aradan qaldırılması istiqamətində dövlət tədbirləri və qarantı olmalıdır;

• Məsələnin əsas nöqtəsi bundan sonra işğaldan azad olunacaq bölgənin qurulması üçün atılacaq addımlardır. Postmüharibə dövründə Azərbaycan masa üzərində apardığı siyasi mübarizə ilə bərabər, həm də strateji iqtisadi inkişaf planı hazırlamalıdır;

• Regionun ilkin olaraq infrastrukturu qurulmalı, kommunal xətlər çəkilməli, yollar salınmalı və eyni zamanda əhalinin yaşayışı üçün lazımlı minimum infrastruktur layihələri həyata keçirilməlidir;

• Əhalinin köçürülməsi məsələsi sürətlənməli və yaşayış güvənliui təmin edilməlidir;

• Regionun resurslarından istifadə imkanları investorların istifadəsinə açıq olmalıdır;

• Regiona sərmayə yatıracaq şəxslər 10 il müddətinə vergidən azad edilməlidir;

• İstehsal layihələri üçün lazımlı avadanlıqlarım, xammalların və eləcə də müəyyən inventarların gətirilməsi zamanı gömrük rüsumları ləğv edilməlidir;

• Dövlət əhəmiyyətli layihələrin həyata keçirilməsi prosesi özəl müəssisələrlə birgə reallaşdırılmalıdır;

• Dövlət büdcəsindən və dövlət fondlarından investorlar üçün xüsusi subsidiyalar ayrılmalıdır;

• Bizneslərin qurulması üçün əlverişli biznes mühiti formalaşdırılmalıdır;

• Xarici investisiyaların birbaşa yönəldilməsi istiqamətində dövlət qarantiyası yaradılmalıdır;

• Bütün investorlar üçün bərabər imkanlar və fürsətlər yaradılmalıdır;

• Qanunvericiliklə nəzərdə tutulmuş sığortalanma prosesləri təkmilləşdirilməlidir;

• Dövlət təftişlərin optimallaşdırılması prosesi həyata keçirilməlidir;

• Xarici kapitalın, xüsusilə valyuta əməliyyatlarının aparılması üçün əlverişli qanunvericilik ortaya qoyulmalıdır.

İnnovativ iqtisadiyyatın formalaşdırılması məqsədilə regional innovasiya siyasətinin uğurla həyata keçirilməsi üçün aşağıdakılardan ibarət olan elmi, təşkilati və texniki tədbirlər kompleksi həyata keçirilməlidir.

1. İnnovativ iqtisadiyyatın formalaşması çərçivəsində uzunmüddətli strateji hədəflərin və onlara çatma vasitələrinin müəyyənləşdirilməsi ilə regionda innovasiya fəaliyyətlərinin və innovativ infrastrukturun inkişafı konsepsiyasının hazırlanması;

2. Regionun innovativ inkişaf proqramının əsas müddəalarının sosial-iqtisadi inkişaf proqramına daxil edilməsi;

3. Yerli və regional hakimiyyət orqanlarının region əhəmiyyətli müvafiq normativ sənədlərin icrası və qəbulu, habelə bu proqramın təşkilati və informasiya dəstəyi ilə həyata keçirilməsi üçün təcrübi fəaliyyətinin təşkili.

Qeyd etmək lazımdır ki, innovativ iqtisadiyyata sahib bir cəmiyyətdə yüksəkixtisaslı mütəxəssislərin rolu çox böyükdür və daim artacaqdır. Bu baxımdan innovasiya proseslərini səmərəli şəkildə idarə etmək, innovativ layihələr hazırlamaq və həyata keçirməyə qadir olan kadrların hazırlanması həm dövlət, həm də region səviyyəsində prioritet problemlərdəndir.

Şərqi Zəngəzur və Qarabağ regionlarında iqtisadiyyatın bərpası üçün ilk növbədə dövlət və özəl investisiyaların inkişaf etdirilməsi iqtisadi aktivliyin artımına əhəmiyyətli təsir göstərəcəkdir. İqtisadi rayonlarda aqrar sektorun və mədənçıxarma sənayesinin inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılması, əhalinin və sahibkarların maliyyə xidmətlərinə rahat çıxış imkanlarının təmin edilməsi istiqamətində maliyyə instutlarının yaradılmasını məqsədə uyğun hesab edirəm.

Tədqiqatın nəticəsində mədənçıxarma sahəsinə qoyulan investisiyaların həcmi və mövcud olan təbii resursların necə talan olunduğu həmçinin işğal nəticəsində dəymiş zərərin qiymətləndirilməsi mümkün olmuşdur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə", Bakı şəhəri, 10 iyul 2021-ci il. https://nk.gov.az/az/document/5457/print/.

2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. AR Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/articles/50474.

3. Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 4 yanvar 2021-ci il, https://president.az/articles/49877.

4. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 7 iyul 2021-ci il.

5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları. Bakı, 2014, 662 səh.

6. Azərbaycan və "Kəmər və Yol" Təşəbbüsü: regional nəqliyyat mərkəzi olma yolunda, 13 iyun 2020, https://politicon.co/az/analytics/33/azerbaijan-and-belt-and-road-initiative-on-the-way-of-becoming-a-regional-transport-center.

7. Azərbaycanın regionları. Statistik məcmuə, 2020, Bakı, 828 səh.

8. Azərbaycanın Statistik Göstəriciləri, Statistik məcmuə, 2020, Bakı, 722 səh.

9. Bayramov İ.M., 2015, "Qərbi Azərbaycanın türk mənşəli toponimləri", Bakı, "Elm" nəşriyyatı, 696 səh.

10. Əliyev Ş., 08.10.2021, Qarabağ və Şərqi Zəngəzur Rayonlarının yaradılmasının strateji aspektləri, GeoStrategiya, http://www.geostrategiya.az/news.php?id=187

11. Müzəffərli N., İsmayılov E., 2010, Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar., Bakı, Qafqaz nəşriyyat evi, 270 səh.

12. Nəcəfli T., Dədəyev B., 2013, Azərbaycan Tarixi, Bakı, ”Qafqaz Universtiteti” nəşriyyatı, 287 səh.

13. Qarabağın xristianlıq tarixi, “Virtual Qarabağ” İnformasiya – Kommunikasiya Texnologiyaları Mərkəzi, https://www.virtualkarabakh.az/az/post-item/22/37/qarabagin-xristianliq-tarixi.html.

14. Rusiya Prezidentinin rəsmi saytı. 2020

15. Sumqayıt Dövlət Universiteti Konfrans Materialları, 2021, Sumqayıt Dövlət Universiteti, 453 səh., https://www.ssu-conferenceproceedings.edu.az/pdf/2021-2.pdf

16. UNEC Ekspert, 2021, Azərbaycan Dövlət İqtisad Universiteti, 104 səh, http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf.

17. Vəliyev A.H. (2019), Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin hüquqi-iqtisadi aspektləri, Bakı, Vəliyev A.H. nəşriyyatı, 386 səh.

18. Zeynalov Z.H., (2022), III bölmə Müstəqillik illərində maliyyə, uçot və statistika, i.e.d., prof. Ədalət Muradov, Respublika Elmi Konfransı Materialları, Bakı, “İqtisad Universiteti” nəşriyyatı, s. 185.

**İngilis dilində**

1. Yunusov a. (2005), karabakh: past and present, baku, 55 p.

**Türk dilində**

1. Aslanlı A., Şerifli Y., 26.05.2021, Zengezur koridoru, Pekin-Londra hattı ve Türkiye’nin artan önemi, https://www.aa.com.tr/tr/analiz/zengezur-koridoru-pekin-londra-hatti-ve-turkiye-nin-artan-onemi/2254505.

2. Eletek Ö., Ermenistan-Azerbaycan Sınırında Provokasyon, 03.08.2021, Ankara Kriz ve Siyaset Araşdırmaları Merkezi, https://www.ankasam.org/ermenistan-azerbaycan-sinirinda-provokasyon/

**Rus dilində**

1. Вестник Кавказа, У карабахских сепаратистов не осталось энергетических и продовольственных перспектив, 06 февраля 2021, https://vestikavkaza.ru/analytics/u-karabahskih-separatistov-ne-ostalos-energeticeskih-i-prodovolstvennyh-perspektiv.html

2. Герасенко В.П., Региональная инвестиционная политика, Экономика и управление, Выпуск. 2016, 29(1), стр.65-72

3. Гиринский А., Сущностные аспекты инвестиционной политики регионов. Молодой ученый, 2019, № 10 (248), стр.98-100.

4. Завьялов Д.В., Агропромышленные кластеры: проблемы и ограничения развития, Том 18, №17, 2017, стр.2542-2552

5. Ковалева А.Е. (2017), Развитие кластерного управления в аграрном секторе экономики, Автореферат, Дис.эк.н.., 27 стр.

6. Самогородская М.И., Разработка региональной инвестиционной стратегии., Региональная экономика: теория и практика, 2002, 2(2), стр.46-52

## İnternet resursları

1. https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/

2. https://azertag.az/xeber/Qarabagin_butun_faydali_qazinti_yataqlari_yeniden_islenmeli_ve_hemin_yataqlarda_kompleks_tedqiqatlar_aparilmalidir-1671243

3. https://bakucity.preslib.az/az/page/cBJE2tj8O0

4. https://genprosecutor.gov.az/az/post/3137

5. https://ihl-databases.icrc.org/ihl/INTRO/195

6. https://mfa.gov.az/files/shares/Azercosmos.pdf

7. https://story.karabakh.center/az/ermeni-ishgali-dovrunde-qarabagda-qeyri-qanuni-iqtisadi-fealiyyet

8. https://unesco.preslib.az/az/page/EhMCymTGWI

9. https://www.franckmuller.com/story

10. https://www.pa.edu.az/library/3/21/152_movzu_19._beynelxalq_ekologiya_huququ.pdf

11. https://www.investopedia.com/terms/o/offshore.asp#:~:text=Offshore%20banking%20describes%20a%20relationship,a%20bank%20account%20at%20home.

12. https://au.edu.az/upload-files/menu/ipekyolu/2021_03/6MammadovaSh.pdf

13. https://president.az/az/articles/view/45924

14. https://yenixeber.az/irevanda-muxalifetin-nikol-get-suari-ile-mitinqi-basladi-22589

15. https://www.un.org/development/desa/dpad/wp-content/uploads/sites/45/publication/WESP2020_MYU_Report.pdf

16. https://www.caterpillar.com/en/company.html#:~:text=WHO%20WE%20ARE,in%20the%20industries%20we%20serve.

17. https://www.flsmidth.com/en-gb/company/about-us

18. https://xalqqazeti.com/ru/news/91183

19. https://www.moderator.az/news/354033.html

20. https://modern.az/az/news/153302

21. https://comtrade.un.org/

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Qarabağ regionun münaqişə nəticəsində1988-1993-cü illər ərzində itirilmiş iqtisadi ərazi potensialı.........................................................................................................25
**Cədvəl 2:** Qarabağ Reqionun münaqişə nəticəsində işqal olunmuş kənd təsərrüfatına yararlı torpaq sahələrindən 2019-cu ildə Ermənistan Respublikası tərəfindən istehsal olunmuş kənd təsərrüfatı məhsullarının həcmi.........................................................................................................30
**Cədvəl 3:** Regionlar üzrə əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat................................40
**Cədvəl 4:** Regionun innovasiya mühitinə təsir göstərən amillər..................................................57

## Şəkillərin siyahısı

**Şəkil 1:** Regionun aqrar-sənaye kompleksinin klaster əsasında inkişafının amilləri......................42
**Şəkil 2:** "Vallex Group" tərəfindən istismar edilən Zəngilan rayonunda yerləşən Vejnəli mədəninin kosmosdan görüntüsü.......................................................................................... 47
**Şəkil 3:** Söyüdlü qızıl yatağının kosmosdan görüntüsü ............................................................. 52
**Şəkil 4:** Dəmirli kənd mis-molibden mədəninin kosmosdan görüntüsü.......................................52
**Şəkil 5:** Regionun innovasiya potensialının inkişafının prioritet istiqamətləri..............................59

## Qrafiklərin siyahısı

**Qrafik 1:** Qarabağ Reqionun və Şərqi Zəngəzur iqtisadi rayonlarının 1988-1993-cü illər ərzində itirilmiş yararlı torpaq resurs potensialı (hektarla)..........................................................................................28
**Qrafik 2:** Qarabağ Reqionun kənd təsərrüfatına yararlı torpaq sahələrindən 2019-cu ildə Ermənistan Respublikası tərəfindən istehsal olunmuş kənd təsərrüfatı məhsullarının həcmi.........................................................................................................30
**Qrafik 3:** Azərbaycanın regionları üzrə məhsul istehsalına, xidmət sahələrinə və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar, faizlə..........................................................................41